# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 235 (8551) CÜMƏ AXŞAMI, 12 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## “Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”



**Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış etdi.**

*Bax: səh. 2*



## İlham Əliyevin möhtəşəm zəfəri



## NOOLDU, PAŞİNYAN?!

Felyeton

**Nooldu, Paşinyan!**

Bəs deyirdin “Qarabağ Ermənistandır - nöqtə”!

İndi alçaldılmış durumda təslimçilik sənədinə imza atırsan!

İndi İlham Əliyevin qarşısında diz çökürsən!

*Azərbaycan Prezidentinin “Qarabağ Azərbaycandır - nida!” bəyanatını qəbul edirsən!*

*Başqa çarən yoxdur!*

*Çünki onu sənə İlham Əliyev etdirir!*

*Təpənnən yumruqla vurmaqla!*

*Dediklərini özünə yedirtməklə!*

**Nooldu!**

❖ ❖ ❖

**Nooldu, Paşinyan!**

Bəs Şuşada yallı gedirdin!

Tut arağından içib açarını itirmişdin!

Şuşada inaqurasiya keçirirdin!

*Nooldu!*

Bəs qondarma “Dağlıq Qarabağ Respublikasının” paytaxtını Şuşaya köçürürdün!

Nooldu!

İndi niyə Şuşada yallı getmirsən, atılıb düşmürsən!

**Çünki Şuşa bizimdir!**

**Şuşanı qəhrəman Azərbaycan əsgəri, şanlı Azərbaycan Ordusu geri aldı!**

**Sizi oradan iti qovan kimi qovdu!**

*Nooldu, Paşinyan!*

Bəs Şuşanı “Şuşi” eləmişdin!

İndi harda gizlənmisən!

Deyəsən, siçan deşiyi tapmısan!

*Ardı 5-ci səh.*

**12 Noyabr Konstitusiya Günüdür**

## Azərbaycan Qarabağda konstitusion hüquqlarını bərpa etdi

### Bu Qələbə Əsas Qanunumuzun qəbulunun 25-ci ildönümünə böyük töhfə oldu

**44 gün davam edən Vətən müharibəsi Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər ordumuz işğalçını kapitulyasiyaya məcbur etdi. Bir vaxtlar işğal siyasəti ilə fəxr edən, Şuşada yallı gedən, ölkəmizi yeni ərazilərin işğalı ilə hədələyən Ermənistanın siyasi-hərbi rəhbərliyi bu ölkənin tarixinin ən biabırçı səhifəsinin müəllifi oldu.**

### Ermənistan döyüş meydanında diz çökdü

Azərbaycan dövlətinin yeganə ağrılı problemi torpaqlarımızın işğal altında qalması idi. 30 ilə yaxın idi ki, bütün xalqımız işğala son qoyulacağı günü gözləyirdi, doğma ev-eşiyindən məcburi köçkün düşmüş yüz minlərlə azərbaycanlı yurd nisgili ilə yaşayırdı. Lakin həm də hər kəs inanırdı ki, günlərin birində işğal başa çatacaq, torpaqlarımız mütləq azad ediləcək.

Beynəlxalq hüquq bizim tərəfimizdə idi, BMT Təhlükəsizlik Şurasının qətnamələri də işğalçı qoşunların Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edirdi. Elə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarında da ilk prinsip işğal olunmuş ərazilərimizin boşaldılması idi. Amma 30 ilə yaxın müddətdə nə Ermənistan işğal siyasətinə son qoydu, nə də beynəlxalq ictimaiyyət və vasitəçilər ondan Azərbaycan torpaqlarının boşaldılmasını tələb etdilər.

Azərbaycan isə dözdü, gözlədi. Danışıqlar prosesinə sadiq olsaq da, günlərin birində torpaqlarımızı güc yolu ilə azad edəcəyimizi də heç vaxt gizlətmədik.

*Ardı 5-ci səh.*

Qalibiyyətin mübarək, Ali Baş Komandan!
Zəfərin qutlu olsun, şanlı Azərbaycan əsgəri!
Ey ana torpaq uğrunda can qoyub müqəddəsləşən, şəhadət aşiqləri!
Qəhrəman elimiz, obamız, ulusumuz, Vətən sevdalılarımız!
Azadlığı haqq eyləyən dədə-baba yurdumuz, Qarabağımız!
Qələbə sənə yaraşır, Bütöv Azərbaycanımız!

Azərbaycan xalqı bu 30 ildə çox faciələr yaşadı, haqsızlıqlara uğradı, ədalətsizliyin qurbanı oldu. Tarixi dədə-baba torpaqlarından qovuldu, soyqırımlarla üzləşdi, tükürpərdici vəhşiliklərə məruz qaldı. Əsir, əliyalın mülki vətəndaşlarımıza qarşı olmazın işgəncələr verən faşist xislətli düşmənin iyrənc əməllərinə şahidlik etdi. Öz vətənində qaçqına, köçkünə çevrildi, illərlə vətən həsrəti gəzdirdi ürəyində...

Çox körpələr doğuldu Xankəndini, Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri, Zəngilanı, Füzulini, Qubadlını, Cəbrayılı yalnız fotolardan, sınıq xatirələrdən tanıyan...

Çox babalarımız, nənələrimiz, atalarımız, analarımız doğma yurdlarını bir daha görmədən bu dünyayla vidalaşdı, yurdlarını son dəfə tərk edərkən götürdükləri bir ovuc torpaq səpildi üzərlərinə...

Və bu ağrı-acılı 30 ilin məngənəsində həmin o bir ovuc müqəddəs vətən torpağı da tükəndi...

### Heç zaman haqq işimizdən vaz keçmədik

Elə səbrimizin, dözümümüzün, hövsələmizin tükəndiyi kimi...

Əslində biz çoxdan yol gəlirdik, ta 30 ilin o tayından bu müqəddəs ana doğru... Nə qədər zülm etsələr də, gözümüzü qorxutmaq istəsələr də, barışmadıq, boyun əymədik azğın düşmənə. Hər birimiz Ermənistandan əsirlikdən gələn vətəndaşlarımızın yaşadıqları, şahidi olduqları işgəncələri eşitmişik, bilirik. Həmin əsirlərin əksəriyyəti isə yaşadıqları bir işgəncədən daha çox danışırdılar: “Ermənilər torpağı ağzımıza yığıb, bizi döyürdülər, deyirdilər ki, “Qarabağ Azərbaycanın deyil” söyləyin. Amma bizə nə qədər işgəncə versələr də, heç zaman bu haqsız sözü dilimizə gətirmədik”.

Bəli, biz heç zaman “Qarabağ Azərbaycandır!” haqq nidasından vaz keçmədik, müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsərək atacağımıza adımız kimi əmin olduq. Sülh yolu ilə mümkün olmasa, Qarabağımızın işğaldan azad edilməsi, vətənimizin bütövlüyü uğrunda son damla qanımıza qədər vuruşaraq qalib gələcəyimizə Azərbaycan xalqının qürur zirvəsi Şəhidlər xiyabanında and içdik.

And içdik ki, məğrur Azərbaycan bayrağını Qarabağın ən hündür zirvələrində dalğalandıracağıq.

### Qarabağ bizimdir!

Budur, artıq həmin qürurlu, şərəfli, zəfər müjdəli qalibiyyət günlərini yaşayırıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin, rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində qələbə sevincimizi yenə də Şəhidlər xiyabanında qeyd edirik.

*Ardı 8-ci səh.*

## “Dəmir yumruq zəfər qazandı”




*Bax: səh. 6*

**Prezidentə yazırlar**

## “Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı”

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi qələbə Azərbaycan vətəndaşlarına, xaricdə yaşayan soydaşlarımıza böyük sevinc və qürur hissi yaşadır. Onlar dövlət başçısına ünvanladıqları məktublarda bu hisslərə görə sonsuz minnətdarlıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.**

Almaniyanın Ştutqart şəhərindən **Cəfər Süleymanov** yazır: “Hörmətli cənab Prezident, Sizə bu Qələbəni yaşaya bilməyimiz üçün verdiyiniz şücaətli, möhtəşəm iradə və mübarizəyə görə təşəkkür edirəm. Şuşa bizim gözümüz, Şuşa bizim canımızdır. Siz bizi yenidən diriltdiniz, Siz bizə ikinci həyat verdiniz. Sizin rəhbərliyiniz altında gözəl və şərəfli günlər bizi gözləyir. Bir millət olaraq sona qədər Sizin arxanızdayıq. Allah Sizi, Ordumuzu və xalqımızı qorusun! Qarabağ Azərbaycandır!”

Türkiyənin İstanbul şəhərindən **Pəri Çəndirova:** “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizə uğurlu siyasətiniz və Azərbaycan xalqı olaraq bizlərə yaşatdığınız Qələbə sevinclərinə görə təşəkkür edirəm. 8 noyabr tarixində Şuşanın geri alınması xəbəri ilə bizə qürur hissi bəxş etdiniz. Hər zaman böyük bir maraq və həyəcan hissi ilə Sizi izləyirik. Xaricdə yaşayan vətəndaş olaraq, ilk növbədə, öz adımdan və çevrəmdə olan soydaşlarımızın adından Sizə təşəkkür edir və Sizi dəstəkləyirik. Dünya azərbaycanlıları olaraq apardığınız siyasətdə Sizə uğurlar arzu edir, ölkəmiz, xalqımız üçün daha böyük nailiyyətlər əldə etmənizi diləyirik. Qələbə hər zaman bizimlə olsun!”

Litvanın Vilnüs şəhərindən **Tamerlan Qarayev:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, icazə verin, Şuşanın azad olunması münasibətilə Sizə minnətdarlıq hisslərimi bildirim, Sizi səmimi-qəlbdən təbrik edim və ən xoş arzularımı çatdırım. Şuşanın azad olunması sevincini xalqımıza yaşatdığınıza görə Sizə sonsuz təşəkkürümüzü bildiririk”.

*Ardı 4-cü səh.*

*Yerevanda etirazçılar son ultimatumlarını verdilər:*

## “Paşinyanı Qəzzafinin gününə salmalıyıq”

### Ermənistanda mitinqə çıxan on minlərlə insan artıq baş nazirin istefasını yox, meydanda edamını tələb edir



**İkinci Qarabağ müharibəsində qalib gələn Azərbaycan Ermənistanı məğlubiyyət aktına imza atmağa məcbur etdi.**

İşğalçı ordunun darmadağın edilməsi səbəbindən baş nazir Nikol Paşinyanın artıq başqa yolu qalmadı. Ermənistanın məğlubiyyətinin bəyanata imza atmaqla rəsmiləşdirilməsi bu ölkənin hər yerində etiraz aksiyalarına səbəb olub.

*Ardı 7-ci səh.*

# “Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”

## Prezident İlham Əliyevin çıxışı






- Əziz hərbçilər, Vətən müharibəsi başa çatdı. Azərbaycan bu müharibədə parlaq qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu, işğalçıları torpaqlarımızdan qovmuşuq. Mən gəlmişəm ki, bu parlaq qələbə münasibətilə sizi şəxsən təbrik edim, sizə öz təşəkkürümü bildirim, Azərbaycan xalqının təşəkkürünü bildirim ki, siz qəhrəmancasına döyüşərək, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərmisiniz, yaralanmısınız, öz həyatınızı risk altına atmısınız, böyük şücaət göstərmisiniz.

İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Mən xahiş edirəm ki, Vətən müharibəsində şəhid olmuş bizim bütün bacı-qardaşlarımızın xatirəsini yad edək, bir dəqiqə sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizə şəfa versin! Allah bütün yaralı əsgər və zabitlərimizə şəfa versin!

Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik.

Döyüşlər şiddətli xarakter almışdı, düşmən müqavimət göstərirdi. Bunu da hər kəs bilsin, bu 44 gün ərzində əldə edilmiş qələbə bizim hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı hesabına qazanılıb. Düşmən işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmaq istəmirdi və siz - bu döyüşlərdə fəal iştirak edən insanlar yaxşı bilirsiniz ki, 30 il ərzində hansı istehkamlar qurmuşdular. O istehkamları yarıb keçmək, o müdafiə xətlərini dəf etmək çox böyük qəhrəmanlıq və hərbi peşəkarlıq tələb edirdi. Bir də ki, o bölgənin coğrafiyası özlüyündə bir istehkamdır. Şuşa alınmaz qala sayılan bir şəhərdir. Pənahəli xan o şəhəri elə salmışdır ki, Şuşa sakinlərini düşməndən maksimum dərəcədə mühafizə edə bilsin. Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan almaq böyük peşəkarlıq, rəşadət rəmzidir. Düşmən 30 il bu torpaqlarda hazırlıq işləri görüb. Bu hazırlıq işləri onu göstərir ki, öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Əgər istəsəydi, bu məsələlərə nə üçün bu qədər vəsait ayırırdı? Bu, onu göstərir ki, bütün bu dövr ərzində - 30 ilə yaxın dövr ərzində düşmən, sadəcə olaraq, bizi aldadırdı, vasitəçiləri aldadırdı ki, onlar bizim torpaqlarımızdan çıxacaqlar. Bu, yalan idi və döyüş meydanında mövcud olan mənzərə bunu təsdiqləyir. Eyni zamanda işğaldan azad edilmiş torpaqların mənzərəsi onu göstərdi ki, bu düşmən Azərbaycan xalqına nifrət hissi ilə yaşayıb, əks təqdirdə bütün binaların sökülməsinə nə ehtiyac var? İşğaldan azad edilmiş ərazilərimizin demək olar ki, 99 faizində bütün binalar dağıdılıbdır - yaşayış binaları, məktəblər, xəstəxanalar, ictimai binalar, tarixi abidələr, əcdadlarımızın qəbirləri, məscidlərimiz. İndi biz bu görüntüləri yayırıq, mətbuatda hər kəs bunu görə bilər. Bu, vəhşilikdir, vandallıqdır, bu, hərbi cinayətdir. Düşmən hərbi cinayət törədib və artıq göstəriş verilib ki, dəymiş ziyanın hesablanması, onun uçotu təmin edilsin. Artıq qruplar səfərbər edilib, beynəlxalq ekspertlər dəvət ediləcək. Beynəlxalq ekspertlərin iştirakı ilə bütün dağıntıların maddi və mənəvi ziyanı hesablanacaq və biz - həm insanlar fərdi qaydada, eyni zamanda mütəşəkkil qaydada düşməni beynəlxalq məhkəmələrə verəcəyik, onlar təzminat ödəyəcəklər, öz çirkin əməllərinə cavab verəcəklər və cavab verirlər.

Biz çalışırdıq ki, bu məsələ sülh yolu ilə həll olunsun. O cümlədən mən 17 il ərzində ölkə başçısı kimi çalışırdım ki, məsələ sülh yolu ilə həll olunsun və bu məsələnin uzanmasının əsas səbəbi də budur. Bir də beynəlxalq vasitəçilər bizi inandırırdılar ki, bu məsələ sülh yolu ilə həll oluna bilər. Ancaq son bir il ərzində gördük ki, bizi sadəcə olaraq aldadırlar, sülh prosesi demək olar, iflic vəziyyətə düşmüşdü. Ermənistanın yeni rəhbərliyi qəbuledilməz, zərərli addımlar və ifadələrlə faktiki olaraq danışıqlar prosesini məhv etmişdi və son aylar ərzində bunu heç də gizlətmirdi. Nümayişkaranə elə addımlar atılırdı ki, həm bizə, həm bütün dünyaya göstərsinlər ki, işğal edilmiş torpaqlar əbədi işğal altında qalacaq. Onlar müxtəlif xəritələr dərc etmişdilər. Bu xəritələrdə “Dağlıq Qarabağ respublikası”nın sərhədlərini müəyyən etmişdilər, o sərhədlərin içərisinə bütün işğal edilmiş torpaqlar da daxil idi. Onlar bizim tarixi şəhərlərimizin adlarını dəyişdirmişdilər, yeni eybəcər adlar vermişdilər. Bütün kəndlərimizin adlarını dəyişdirmişdilər. Tarixi-mədəni irsimizi silmək istəyirdilər. Xaricdən erməniləri Şuşaya gətirib məskunlaşdırmaq istəyirdilər. Yeni kommunikasiyaların, yolların çəkilişi nəticəsində o məskunlaşmanı, xüsusilə Arazboyu yerləşən rayonlarda o məskunlaşmanı sürətləndirmək istəyirdilər. Xaricdə yaşayan ermənilərin maliyyə və siyasi dəstəyi hesabına bir neçə ölkədə bəzi bələdiyyələr artıq “Dağlıq Qarabağ respublikası”nın tanınması haqqında qərarlar qəbul etmişdilər. Bütün bunlar nəyi göstərir? Bütün bunlar onu göstərir ki, onlar hesab edirdilər, bax, bu yollarla həm işğalı qanuniləşdirəcəklər, həm də qondarma kriminal qurumun tanıdılması istiqamətində uğurlar qazanacaqlar. Görəndə ki, bizi sadəcə olaraq aldadırlar, bizi, müqəddəs yerlərimizi təhqir etməyə çalışırlar, biz sözümüzü dedik və mən bunu gizlətmirdim. Bütün bu dövr ərzində - 17 il ərzində demişdim ki, əgər bu məsələ sülh yolu ilə həll olunmasa, bunu hərbi yolla həll edəcəyik. Kim nə deyirdesin, bu gün də eyni fikirdəyəm, eyni sözlərimi deyirəm. Bu 44 gün ərzində mənə nə qədər zənglər oldu, nə qədər siqnallar göndərildi ki, dayanın, dayanın. Deyirdim ki, şərt qoyuram düşmən qarşısında, çıxsın torpaqlarımızdan biz dayanaq. Bəyanat versin ki, çıxıram, biz dayanaq. Cədvəl versin, tarix versin, biz dayanaq. Amma düşmən hesab edirdi ki, bizim uğurlu hücumumuzun qarşısını ala bilər.

Artıq birinci həftələrdən sonra dərk etdilər ki, bizim qabağımızda dura bilməyəcəklər. Ona görə beynəlxalq ictimaiyyətə daha fəal şəkildə müraciət etməyə başladılar ki, beynəlxalq təşkilatlar, bəzi ölkələr bizi dayandırsınlar. Mən isə deyirdim ki, heç kim bizi dayandıra bilməz, sona qədər gedəcəyik. Paşinyan şərtlərimi qəbul etməli, bəyan etməlidir ki, filan tarixdə filan rayonlardan çıxır və buna nail olduq. Noyabrın 10-da imzalanmış birgə bəyanat faktiki olaraq Ermənistan sülh kapitulyasiya aktı idi. Necə ki, vaxtilə İkinci Dünya müharibəsi başa çatandan sonra Hitlerin əlaltıları müttəfiq ölkələrin hərbi rəhbərlərinin qarşısında kapitulyasiya aktını imzalamışlar, mən də deyirdim ki, eyni qaydada Paşinyan canlı formatda, videokonfrans şəklində kapitulyasiya aktını imzalamalıdır. Amma açığını deyim, ondan sonra Rusiya Prezidenti Vladimir Putin məndən xahiş etdi ki, mən bu məsələdə çox da təkid etməyim. Mən hesab etdim ki, onsuz da Paşinyan kifayət qədər alçaldıldı, öz çirkin əməllərinə görə cəzalandırıldı, faktiki olaraq diz çökdü, mənim bütün şərtlərimi qəbul etdi. İmzalanmış bəyanatda Ağdam, Laçın, Kəlbəcər rayonlarından işğalçı qüvvələrin çıxarılmasının cədvəli də təsdiq olundu. Dedim etiraz etmirəm. Dedim getsin harada istəyir imzalasın, qaranlıq bir otaqda, bir anbarda, kameralardan uzaq bir yerdə imzalasın. Belə də oldu. Mənim və Prezident Putinin imzalanma mərasimini bütün Azərbaycan xalqı gördü. Paşinyan, sən harada imzalamısan bu sənədi? O qədər də əhəmiyyətli deyil. Çünki indi onu tapmaq mümkün deyil. Heç kim də soruşa bilməz, ay Paşinyan, sən bunu harada imzalamısan?

Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir. Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir.

Xalqımızın duyğularını təsəvvür etmək çətin deyil. Mən bu dönəmdə hər gün minlərlə məktub alıram. Sevinclə dolu, minnətdarlıqla dolu, qürur hissi ilə dolu məktublar məni doğrudan da çox duyğulandırır. Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki, artıq mən qaçqın deyiləm. Bilirsiniz bu, nə deməkdir? Bu, bəlkə də ən xoşbəxt anların təzahürüdür, həm bu insanların həyatında, həm bizim hamımızın həyatında və mənim həyatımda. Deyir ki, mən artıq köçkün, qaçqın deyiləm. Onlar bu daşı öz ətəyindən tökmək istəyirdilər. Onlar mənfur düşmən tərəfindən bizə yapışdırılmış belə bir ifadədən öz canlarını qurtarmaq istəyirdilər və bu gün gəldi.

Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz. Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq. İlk növbədə, əlbəttə, təhlükəsizlik tədbirləri görülməlidir. Mənfur düşmən o bölgələrdə demək olar ki, hər yerə minalar döşəyib. İndi minalardan təmizləmə prosesi getməlidir. Biz indi beynəlxalq təşkilatları da cəlb edəcəyik. Çünki qısa müddət ərzində bunu etmək üçün bizdə daxili imkanlar məhduddur. İlk növbədə, təhlükəsizlik, ondan sonra infrastruktur, ondan sonra bütün başqa bərpa məsələləri öz həllini tapacaq. Eyni zamanda bildiyiniz kimi, bu 44 gün ərzində düşmən öz məğlubiyyətinin acısını mülki vətəndaşlardan çıxarmaq istəyirdi. Bunun nəticəsində 93 mülki şəxs həlak oldu, 400-dən çox mülki şəxs yaralandı, 3 mindən çox bina ya dağıldı, yandı, ya da ki, ziyan gördü. Mən artıq göstəriş vermişəm, bölgələrə qruplar göndərilir, vurulmuş ziyan hesablanır. Dağılmış bütün evlərin hamısı dövlət hesabına yenidən tikiləcək, zərər görmüş bütün evlər dövlət tərəfindən bərpa ediləcək. Vətəndaşlarımızın itirilmiş mülkiyyəti bərpa ediləcək, itirilmiş ev heyvanları vətəndaşlara veriləcək. Yəni bizim vətəndaşlarımız tam əmin ola bilərlər ki, onların itirilmiş bütün mülkiyyəti bərpa ediləcək. Mən söz verirəm ki, onlar üçün tikiləcək evlər, əvvəlki evlərdən daha yaxşı olacaq, daha keyfiyyətli olacaq, daha geniş olacaq. Biz bunu edəcəyik. Bizim üçün xalqımızın rifahı, təhlükəsizliyi birinci məsələdir. Ancaq bu dövr ərzində mənim üçün ondan da vacib məsələ torpaqlarımızın qaytarılması idi, ərazi bütövlüyümüzün bərpası idi, bayrağımızın Şuşada ucaldılması idi, işğal altında olan bütün başqa torpaqlarda bayrağımızın qaldırılması idi. Buna nail olduq!

Biz tarixi anlar yaşayırıq. Görürsünüz ki, küçələrdə insanlar bu bayramı necə qeyd edirlər. Bu bayramı bütün Azərbaycan qeyd edir, bütün dünya azərbaycanlıları qeyd edirlər. Bu bayram qardaş Türkiyədə bizdəki kimi qeyd olunur. Bu, təbiidir. Çünki biz bir millət, iki dövlətik. Bu günlər ərzində əziz Qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana dəfələrlə öz təşəkkürümü bildirmişəm. Dünən də telefonla danışmışıq. Yenə də təşəkkürümü bildirdim. Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, Qardaşımın ilk saatlardan dediyi “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi. Bütün bu dövr ərzində həm Prezident, həm nazirlər, vəzifəli şəxslər daim bizə öz dəstəyini ifadə etmişlər. Görürsünüz, nə qədər heyətlər gəlir. Demək olar ki, hər həftə Türkiyədən bir neçə heyət gəlir. Türkiyədən bizə dəstək və həmrəylik nümayişi Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

İndi həyatımızda yeni dövr başlayır. Bu dövr ölkəmizin xoşbəxt gələcəyini təmin edəcək. Sizin həyatınızda yeni dövr başlayır. Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək. Siz əmin ola bilərsiniz. Sizin gələcək həyatınızla bağlı mən bəri başdan bütün dövlət qurumlarına, özəl şirkətlərə müraciət edirəm, bildirirəm ki, hərbçilərimizi, qəhrəmanlıq göstərmiş, yaralanmış hərbçilərimizi işlə təmin etmək üçün xüsusi addımlar atılacaqdır. Biz bunu daim nəzərə alacağıq.

Şəhid ailələrinin problemləri öz həllini tapacaq. Biz növbədə dayanan əksər şəhid ailələrimizin məişət problemlərini demək olar ki, həll etdik. Bu il 1500 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin ediləcək. Bu gün buradan bizim bütün aidiyyəti qurumlarımıza göstəriş verirəm ki, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş insanların yaxınlarına qısa müddət ərzində həm maddi dəstək göstərilməlidir, eyni zamanda indi onların uçotu aparılır. Dəqiq uçot aparılandan sonra onlara mənzillərin, evlərin verilməsi təmin ediləcəkdir.

Mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm. Artıq müvafiq göstəriş verilibdir. Mən artıq göstəriş vermişəm və sizin qarşınızda bunu bəyan etmək istəyirəm ki, Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək. Göstəriş vermişəm ki, düşmənin qənimət götürülmüş hərbi texnikası Bakıya gətirilsin. Tapşırmışam ki, yer seçilsin, o texnikanı biz nümayiş etdirəcəyik. Bütün Azərbaycan xalqı gedib görəcək ki, biz nəyi əldə etmişik. Məhv edilmiş bəzi texnika elə vəziyyətdədir ki, indi onu gətirmək mümkün deyil. Amma bu məlumatı mən ardıcıl şəkildə xalqımıza təqdim edirdim ki, biz düşmənin nə qədər texnikasını məhv etdik. Faktiki olaraq onların ordusunda texnika qalmadı, ordusu demək olar ki, yoxdur.

Ardı 3-cü səh.

# “Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”

*Əvvəli 2-ci səh.*





Özləri də bunu etiraf ediblər. Özləri də etiraf edirdilər ki, Azərbaycan onlara qalib gəldi. Yəni qənimət götürülmüş o hərbi texnikanı nümayiş etdirəcəyik. Planlarım çoxdur. İnşallah, hamısını icra edəcəyik. Bu tarixi Qələbəmizi hüquqi müstəvidə, siyasi müstəvidə daha da möhkəmləndirəcəyik. Bundan sonra vətəndaşlarımız rahat yaşayacaqlar, öz doğma torpağına qayıdacaqlar. Azərbaycan sizin sayənizdə yeni bir dövrə qədəm qoyacaq.

Ona görə bu gün, müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim. Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

❖ ❖ ❖

Baş leytenant **Mail ƏSGƏROV:** Həqiqi hərbi xidmətimi ehtiyatda olan zabit kimi başa vurmuşdum və ehtiyata buraxılmışdım. Sizin əmrinizlə qismən səfərbərlik elan olunanda mən də yenidən hərbi xidmətə, ordu sıralarına qayıtdım və düşmənlə Füzuli rayonu istiqamətində vuruşduq, orada da yaralandım. Çox fəxarət hissi keçirirəm ki, döyüş yoldaşlarım mənim missiyamı yarımçıq qoymadılar, qələbə çaldılar.

Yaralanandan sonra müalicə aldığım xəstəxanada Sizin torpaqlarımızın işğaldan azad olunması ilə bağlı etdiyiniz çıxışları böyük səbirsizliklə gözləyirdik. O çıxışların içində bizim üçün əhəmiyyət kəsb edən çıxışlardan biri də Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşa şəhərində üçrəngli bayrağın dalğalanması xəbərini eşitmək arzusu idi. Onu da Siz bizə nəsib etdiniz. Ona görə Sizə xüsusi təşəkkürümü bildirəm.

Siz ötən çıxışınızda, daha doğrusu, son çıxışınızda xalqa müraciətlə dediniz ki, biz dəmir yumruq olaraq düşmənə qalib gəldik. Mən bunu belə xarakterizə edərdim ki, bu dəmir yumruq həm xalqımızın birliyi, xalqımızın vəhdəti, ordumuzun gücü və xüsusən qeyd etmək istəyirəm ki, xalqın Sizə olan böyük inamıdır. Yəni xalqın içində olaraq bunu mən deyirəm, xalqın Sizə olan böyük inamıdır. Bu, qələbəni təmin etdi. Biz o yumruqla düşməni əzdik.

Bu Qələbəni, bu sevinci, bu qalibiyyəti bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkürümüzü bildiririk. Fürsətdən istifadə edib Qələbəyə görə Sizi təbrik edirəm və Mehriban xanım, Sizi təbrik edirəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Biz bu Qələbəni çoxdan gözləyirdik. Bizim xalqımız bu Qələbəyə layiqdir. Bizim xalq qalib xalqdır. Sağ olun, uşaqlar.

## Baş nazir Əli Əsədov beynəlxalq ağacəkmə aksiyasında iştirak edib



Noyabrın 11-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə keçirilmiş, Yaxın Şərq, Balkan, Şərqi Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və Afrika ölkələrini əhatə edən “Gələcəyə nəfəs ol!” beynəlxalq ağacəkmə kampaniyasında iştirak edib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu və Azərbaycan Hökumətinin üzvlərinin iştirakı ilə Abşeron rayonunun Xocasən qəsəbəsində təşkil edilən tədbir çərçivəsində 11 hektar ərazidə 11 min ağac əkilib.

Ankara ilə Bakı arasında canlı bağlantıda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla söhbət zamanı Baş nazir Əli Əsədov başda Rəcəb Tayyib Ərdoğan olmaqla, Türkiyə rəhbərliyinə və bütün qardaş Türkiyə xalqına Azərbaycanın Qələbəsi ilə əlaqədar verdikləri dəstəyə, göstərdikləri həmrəyliyə görə təşəkkürünü bildirib.

Otuzadək ölkəni əhatə edən ağacəkmə aksiyası Azərbaycanın bütün bölgələrində təşkil olunub. Aksiya zamanı on minlərlə ağac əkilib.

Kampaniya həmçinin Füzuli rayonunun işğaldan azad olunmuş Qarğabazar kəndinin ərazisində də keçirilib.

Aksiya zamanı Azərbaycan, Bosniya və Herseqovina, İraq, Liviya, Malta, Monteneqro, Qazaxıstan, Gürcüstan, Ukrayna, Serbiya, Əfqanıstan, Özbəkistan və Albaniya daxil olmaqla, 70 ölkə təmsilçisinin iştirakı ilə ağaclar əkilib.



## Azərbaycan və Türkiyə Müdafiə nazirlərinin görüşü keçirilib

**Noyabrın 10-da Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar arasında görüş keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə ikitərəfli hərbi əməkdaşlıq məsələləri müzakirə olunub.

## *Ceyhun BAYRAMOV:* “Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz”

**İsrailin “Hayom” qəzetində Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun müsahibəsi dərc edilib.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər.

Müsahibədə nazir Ceyhun Bayramov Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ölkəmizin beynəlxalq hüquqa əsaslanan mövqeyi, Ermənistanın uzun illər davam edən işğalçı siyasəti və danışıqlar prosesində nümayiş etdirdiyi destruktiv mövqeyindən danışıb. Bildirib ki, artan cəzasızlıq hissi Ermənistanı danışıqlarda qeyri-konstruktiv mövqe tutmağa və “yeni ərazilər üçün yeni müharibə” şüarı ilə ərazi iddialarını irəli sürməyə təşviq edib. Bu, hazırda qarşılaşdığımız vəziyyətə gətirib çıxarıb. Azərbaycan danışıqlara başlamağa hazırdır, lakin bunun üçün Ermənistan öz silahlı qüvvələrini işğal altındakı torpaqlardan çıxarması barədə öhdəlik götürməlidir. Güzəşt məsələsinə gəldikdə, Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz.

Nazir Yaxın Şərqdə sülh prosesində inkişafın Azərbaycan tərəfindən diqqətlə izlənildiyini bildirib. Yaxın Şərqdə sülh və təhlükəsizliyin bərqərar olunmasına ölkəmizin həmişə dəstək göstərdiyini, “İbrahim razılaşmaları”nın bütün bölgənin inkişafına və rifahına töhfə verəcəyinə inandığını qeyd edən nazir həmçinin ikitərəfli münasibətlərdən danışıb, ölkələrimiz arasında bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı və turizm sahələrində əməkdaşlığın geniş perspektivlərinin olduğunu vurğulayıb. Deyib ki, turizm daha geniş əməkdaşlıq üçün perspektivli sahədir. İsrail ilə Azərbaycan arasında birbaşa uçuşlar və qarşılıqlı viza prosedurunun asanlaşdırılması turizmin hər iki istiqamətdə inkişafını təşviq edir.

Yəhudilərlə azərbaycanlılar arasında münasibətlərə toxunan Xarici İşlər naziri Ceyhun Bayramov deyib ki, bu əlaqələr həmişə çox yaxşı olub. Yəhudilər Azərbaycanda əsrlər boyu yaşayıblar. Bu müddət ərzində yəhudilər və azərbaycanlılar sülh və dostluq şəraitində birgə yaşayıblar. Belə gözəl ənənənin davamlığı ilə fəxr edirik. Bu icmanın ölkəmizin inkişafına töhfəsini yüksək qiymətləndiririk. İcma eyni zamanda Azərbaycan ilə İsrail arasındakı münasibətlərin inkişafında da rol oynayır.

## *XİN:* “Fransanın hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanata dair açıqlaması tamamilə qərəzli xarakter daşıyır”

“Fransanın Avropa və Xarici İşlər üzrə naziri Jan-İv Lö Drianın Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidenti tərəfindən imzalanmış, bütün hərbi əməliyyatların dayandırılması ilə bağlı bəyanata dair verdiyi açıqlama Fransanın ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi qismində mandatına uyğun olmayaraq, tamamilə qərəzli xarakter daşıyır”.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında bildirilib.

Açıqlamada həmçinin deyilib: “Qeyd etmək istərdik ki, birtərəfli və açıq-aşkar erməniprəst mövqeyi əks etdirən bəyanatla çıxış edən Fransanın Xarici İşlər nazirinin digər həmsədr ölkələrin adından çıxış etmək səlahiyyəti yoxdur.

Jan-İv Lö Drianın Fransanın həmsədr kimi mandatına uyğun olaraq, öz ölkəsinin daimi üzv qismində 1993-cü ildə lehinə səs verdiyi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi bəyanatları ilə çıxış etdiyini təəssüf ki, bu illər ərzində müşahidə etməmişik. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində Ermənistanın silahlı qüvvələrinin qeyri-qanuni mövcudluğuna dərhal son qoyulması və bu ərazilərdən zorla qovulmuş insanların öz evlərinə geri dönməsi tələbinin Fransanın xarici siyasətə məsul qurumu tərəfindən nə zaman səsləndirildiyini xatırlamırıq. Yoxsa münaqişə nəticəsində yüz minlərlə azərbaycanlının fundamental insan hüquqlarının kobud şəkildə pozulması Fransanı maraqlandırmır?!

Azərbaycanın beynəlxalq hüquqa tam uyğun şəkildə, beynəlxalq sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü təmin etməsi və bir milyondan çox azərbaycanlının insan hüquqlarının bərpa olunması istiqamətində legitim səyləri Fransanı narahat etməməlidir”.

## Prezidentə yazırlar



# “Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı”

*Əvvəli 1-ci səh.*

Moskvadan **Fazil Qurbanov** yazır: “Hörmətli cənab Prezident, Rusiyadakı Azərbaycan diasporunun çoxmilyonlu üzvləri və şəxsən öz adımdan Sizi, bütün Azərbaycan xalqını, igid Ordumuzu Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə təbrik edirəm. Biz, azərbaycanlılar hər zaman Vətənimizin - Azərbaycanın yanındayıq və yürütdüyünüz siyasəti tam dəstəklədiyimizi bildiririk. İşğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan xalqının müqəddəs borcudur. Artıq həmin zaman yetişdi - 2020-ci il noyabrın 8-i əbədi olaraq Azərbaycanın tarixinə düşdü. Bu, əzəmətli qələbəmizin günüdür. Adınız böyük Azərbaycan xalqının tarixinə əbədi olaraq qızıl hərflərlə yazılacaq. Yaşasın Azərbaycan Respublikasının xalqı və ordusu! Qarabağ Azərbaycandır!”

Gürcüstanın Marneuli şəhərindən **Həcər Yusibova:** “Əziz İlham baba, mənim adım Həcərdir. 10 yaşım var. Biz hamımız Sizi çox sevirik. Mən qəhrəman Azərbaycan əsgərləri üçün az da olsa, pul yardımı göndərirəm. Erməniləri də dediyiniz kimi, qovduq. Biz birlikdə güclüyük! Qarabağ Azərbaycandır!”

İsveçin Vesteros şəhərindən **Əlif Cahangirov:** “Salam, cənab Prezident, Sizə İsveçdən yazıram. Biz çox xoşbəxtik, biz çox qürurluyuq, biz çox şanslıyıq. Biz ona görə xoşbəxtik ki, əzəli və müqəddəs torpaqlarımızı, Qarabağımızı düşməndən azad edirik, Şuşamız artıq bizdədir və biz bu tarixi günlərə sevinc göz yaşı tökərək şahidlik edirik. Biz ona görə qürurluyuq ki, bu tarixi anları bizə yaşadan şanlı Ordumuz, cəsur əsgərlərimiz, igidlərimiz var! Biz ona görə şanslıyıq ki, bizim kimliyimizi, qürurumuzu, xalqımızın iradəsini dünyaya sübut edən, başımızı uca, alnımızı açıq edən Sizin kimi rəhbərimiz var. Cənab Prezident, mən ailəmiz adından Sizə təşəkkür etməyi özümə borc bilirəm. Biz həmişə yanınızdayıq və hər zaman əmrinizdəyik. Yaşasın Azərbaycan Ordusu! Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan!”

Aşqabad şəhərindən **Zəkiyə Hacızadə** yazır: “Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Heydər oğlu, bu məktubu Sizə Türkmənistandan yazıram. Mən Aşqabad şəhərində yaşayıram, 6-cı sinifdə oxuyuram. Adım Zəkiyədir. Biz hər gün televiziya qarşısında əyləşib, Sizin çıxışlarınızı gözləyirik. Siz hər dəfə Azərbaycanın yeni-yeni ərazilərinin işğaldan azad olunduğunu elan edirsiniz. Bu xəbərlər bizi çox sevindirir. Lakin Şuşanın azad edilməsi xəbəri hamımıza xüsusi sevinc bəxş etdi. Biz Sizinlə və igid əsgərlərimizlə qürur duyuruq. Tezliklə bütün torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq. Yaşasın Azərbaycan!”

Bakı şəhər sakini **Rafail Musayev:** “Hörmətli cənab Prezident, biz Azərbaycan vətəndaşları olaraq əldə etdiyimiz qələbələrdən fərəh, sevinc və qürur hissləri keçiririk. Onilliklərlə gözlədiyimiz günlər nəhayət ki, gəlib çatdı. Cənab Ali Baş Komandan, inanırıq ki, Sizin rəhbərliyinizlə rəşadətli Azərbaycan Ordusu işğal altında olan bütün torpaqlarımızı tamamilə azad edəcək və üçrəngli bayrağımız həmin torpaqlarımızda dalğalanacaq. Möhtərəm Prezident, hər zaman Sizinləyik. Sizi əmin etmək istəyirik ki, göstəriş verdiyiniz halda hamımız bir nəfər kimi cəbhəyə yollanaraq işğal altındakı digər bölgələrimizi də düşməndən təmizləməyə hər an hazırıq. Allah Sizi və rəşadətli Ordumuzu qorusun! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”

Biləsuvardan **Elçin Rəhimov:** “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin düzgün və uğurlu siyasətiniz nəticəsində Qarabağ uğrunda gedən döyüşlərdə əzəli torpaqlarımızın işğaldan azad olunmasına sevinir və hədsiz qürur hissi keçiririk. Biz məcburi köçkünlər 30 ilə yaxındır ki, gözlədiyimiz bu haqq işinizi dəstəkləyir və Azərbaycan vətəndaşı olaraq hər zaman yanınızda olduğumuzu bildiririk. Xalqımız öz tarixinin şanlı və qürurverici səhifələrindən birini yaşamaqdadır. Hazırda milyonlarla vətəndaşımızın hər bir qarış Vətən torpağı üçün döyüşməyə, lazım gələrsə canından belə keçməyə hazır olduğunu bilməyinizi istəyirik. Tanrı Sizi, Ordumuzu və bütün Azərbaycan xalqını qorusun!”

Paytaxt sakini **Elmira Həsənova:** “Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, ilk növbədə, bizə bu sevinci - Şuşa Qələbəsini yaşatdığınız üçün Sizə və Şanlı Ordumuza öz minnətdarlığımızı bildiririk. Sizin kimi güclü bir Liderimiz olduğu üçün Azərbaycan xalqı çox şanslıdır. Sizinlə və Ordumuzla qürur duyuruq. Son nəfəsimizə qədər Vətənin xidmətində və Sizin yanınızdayıq. Allah Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət etsin və ön cəbhədə Vətəni müdafiə edən igidlərimizi qorusun! Qələbə bizimdir! Qarabağ Azərbaycandır!”

Gəncə şəhərindən **Xalsa Nəsibova:** “Hörmətli cənab Prezident, Şuşa ilə bağlı xəbəriniz bir daha yenilməzliyimizin təntənəsi oldu. Siz qürurumuzu, məğrurluğumuzu, vüqarımızı və şərəfimizi özümüzə qaytardınız. Siz qızıl hərflərlə silinməz bir tarix yazdınız. Dövlət Bayrağı Günü ilə əlaqədar Azərbaycan xalqına ən böyük hədiyyə etdiniz. Var olun, cənab Prezident! Allah Sizi və komandanlıq etdiyiniz Ordumuzu qorusun!”

Gəncənin daha bir sakini **Elnur İsmayılov:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, zamanı dəyişmək, hadisələrə yön vermək, illərdir ürəyimizdə düyünlənib qalan Qələbə ümidini reallaşdırmaq və insanlara təqdim etmək Sizin Azərbaycan xalqına ən gözəl hədiyyənizdir. Bu hədiyyə mədəniyyət işçiləri üçün “Oskar” mükafatı, tələbələr üçün fərqlənmə diplomu, müəllimlər üçün gələcəyə yatırılan biliyin çiçək açması, elm adamları üçün “Nobel” mükafatı, jurnalistlər üçün alınması mümkün olmayan müsahibədən daha ali, daha dəyərlidir. Şanlı Ordumuz zəhmətinin şirin bəhrəsini görür və öz hədiyyəsini qəbul edir. Qələbə xəbərlərini gözləmək, onu eşitmək, hər gün bayrağımızla söhbətləşmək o qədər gözəldir ki, cənab Prezident! Allah Sizi var eləsin! Siz bu gün ölkəmiz üçün aşılması çətin olan divarları öz qətiyyətli mövqeyiniz və dəmir iradəniz sayəsində məhv edirsiniz. Bütün bunlar isə xalqın işıqlı gələcəyinə zəmanətdir. Qarabağ Azərbaycandır!”

Mingəçevir şəhərindən **Nərmin Qurbanlı:** “Əziz İlham baba, mən Sizinlə fəxr edirəm və Sizi Şuşanın alınması münasibətilə təbrik edirəm. Allah Sizi və Müzəffər Ordumuzu qorusun! İlham baba, bütün dualarımız Sizinlədir. Erməniləri iti qovan kimi qovuruq. Allah Sizi və müzəffər Ordumuzu qorusun. Qarabağ Azərbaycandır!”

Zaqataladan **Həsən Ömərov:** “Çox hörmətli cənab Prezident, Sizin zəfər yolunda inamlı addımlarınız nəticəsində Azərbaycan Respublikasının incisi olan Şuşa şəhəri düşməndən azad edildi. Bu münasibətlə Sizi təbrik edirik. Bizim dövlətimiz güclü, şanlı Ordumuz yenilməzdir. Yaşasın Azərbaycan!”

Zaqatalanın daha bir sakini **Nəbi Kərimov:** “Müzəffər Ali Baş Komandan, Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə Sizi təbrik edirəm. Xalqımızı bu gözəl xəbərlə bir daha sevindirdiniz. Yaşasın Azərbaycan və onun Müzəffər Ali Baş Komandanı! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Lənkərandan **Əli Tahirov:** “Hörmətli cənab Prezident, mən Lənkəran rayonu, Boladi kəndi N.Axundov adına 1 nömrəli tam orta məktəbin üçüncü sinfində oxuyuram. Atam zabitdir və halhazırda cəbhədə döyüşür, mənfur düşmənə layiqli cavablarını verir. Şuşanın işğaldan azad olması məni də hədsiz dərəcədə sevindirir və bu münasibətlə Sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Şuşanın azad olmasında atam da iştirak etdiyi üçün onunla fəxr edirəm. Sizə və atama inanıram. Sizin çıxışlarınızda dediyiniz bir ifadə çox xoşuma gəlir: “Biz bir dəmir yumruq kimi birləşmişik”. Mən də böyüyəndə atam kimi hərbçi olacağam və Sizin kimi Azərbaycanın müstəqilliyi, bütövlüyü uğrunda çalışacağam”.

Ağdaşdan **Şöhlə Abbasova:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin rəhbərliyinizlə şəhər və kəndlərimizin gündəngünə abadlaşması, yollarımızın yenidən qurulması, xarici və daxili siyasətiniz, Ordumuzun möhkəmlənməsi üçün gördüyünüz işlər bizi fərəhləndirir, Sizinlə fəxr edirik. Sizin uzaqgörən siyasətinizin nəticəsidir ki, Azərbaycan inkişaf etmiş dövlətlər sırasındadır. Cənab Prezident, Sizin rəhbərliyinizlə ordumuzun qazandığı qələbə 30 ildir ki, xalqımızın ürəyində məskən salmış Qarabağ yarasını sağaltdı, şəhidlərimizin ruhunu şad etdi. Qarabağın ürəyi olan Şuşanın alınması xəbərini verərkən Sizdə olan vüqarı, şücaəti, əzəməti, eləcə də qəlbinizin dərinliyində olan kövrəkliyi hiss etdik. Əziz balam, Sizi, ailənizi, Ordumuzu və xalqımızı Qələbə və 9 Noyabr - Bayraq Günü münasibətilə təbrik edir, bağrıma basaraq öpürəm. Atalar demişkən: “Ot kökü üstündə bitər”. Müstəqilliyimizin banisi olan Ulu Öndərimiz Heydər Əliyevə xalqın sevgisini bildirən “Xalq Heydər, Heydər xalqım deyəcək!” şüarı dillər əzbəri olduğu kimi, indi də Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız məqsədyönlü mübarizəyə görə “Azərbaycan-İlham, Qarabağ Azərbaycandır!” şüarı dillər əzbəridir. Tanrı Sizi, Ordumuzu və xalqımızı qorusun! Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Tapdıq Abdullayev:** “Hörmətli Ali Baş Komandan, Siz Şuşanın yenidən bizə qayıtması xəbəri ilə bütün Azərbaycan xalqını sevindirdiniz. Azərbaycan xalqı Sizinlə fəxr edir. Sizin sayənizdə yeni bir tarix yazılır. İnşallah, bütün torpaqlarımız işğaldan azad olunandan sonra Sizin başçılığınızla oralar cənnətə dönəcək. Möhtərəm cənab Prezident, bu qələbələr münasibətilə Sizi təbrik edirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Tovuz sakini **Dəmir Qurbanlı:** “Möhtərəm cənab Prezident, hörmətli Ali Baş Komandan, əbədiyaşar müdrik rəhbərimiz, bənzərsiz dünyəvi siyasi xadim Heydər Əliyev siyasətinin davamçısı olaraq xalqımızın dəstəyi ilə 2003-cü ildən həyata keçirdiyiniz uğurlu, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətinizin son 17 ildə gərgin və yenilməz fəaliyyətinizin nəticəsidir ki, bu gün dünyanın və regionun lider dövlətinə çevrilmiş Azərbaycan və onun qəhrəman Ordusu Sizin komandanlığınızla doğma Qarabağımızı, Şuşamızı işğaldan azad etməklə təkcə erməni faşizminin planlarını darmadağın etmədi, eyni zamanda son 200 ildə ermənilərin tarixi himayədarlarının dəstəyi ilə “böyük Ermənistan yaratmaq” planlarını da darmadağın etdi. Bu Qələbə təkcə Ermənistan üzərində Qələbə deyil. Bu Qələbə ermənilərə himayədarlıq edən, onları silahlandıran, ruhlandıran beynəlxalq güc mərkəzləri, erməni lobbiləri üzərində Qələbədir. Cənab Ali Baş Komandan! Arzum budur ki, Sizə Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycanın milli marşalı, dünyanın generalissimusu hərbi rütbəsi verilsin. İşğaldan azad edilən şəhərlərimizdə, rayonlarımızda və Bakı şəhərində generalissimus rütbəsində Sizin heykəliniz ucaldılsın. Eşq olsun Ali Baş Komandanımıza! Eşq olsun qəhrəman Ordumuza! Qarabağ Azərbaycandır!”

Zaqataladan **Murtuz Əliyev:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə kollektivimiz adından ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, işlərinizdə uğurlar arzulayıram. Sizin Ali Baş Komandanı olduğunuz Ordumuz xalqımıza heç vaxt unudulmayacaq tarixi anlar və böyük qürur hissi yaşatdı. Artıq biz qalib xalqıq. Yaşasın şanlı Azərbaycan Ordusu!”

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Sizi Dağlıq Qarabağ münaqişəsi üzrə sülh razılaşmasının imzalanması münasibətilə ürəkdən təbrik edirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, Azərbaycanın çoxmillətli xalqının rifahı naminə qarşınızda duran vəzifələrin həyata keçirilməsində uğurlar, əmin-amanlıq, səadət və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Ruslan AUŞEV,***
***İnquşetiya Respublikasının sabiq Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizin rəhbərliyinizlə Şuşa şəhərinin və ölkənizin işğal altında olan digər ərazilərinin azad edilməsi ilə bağlı ordunuzun və dövlətinizin əldə etdiyi nailiyyətlər münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizi həmçinin imzaladığınız bəyanat münasibətilə təbrik edirəm.

Ölkənizin dostu və Albaniyanın sabiq Baş naziri olaraq, müasir dövrümüzün ən böyük layihələrindən biri olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi vasitəsilə Sizinlə sıx əməkdaşlıq edən biri kimi, mən Sizin rəhbərliyinizlə Ordunuzun ölkənizin işğal olunmuş ərazilərini azad etmək istiqamətindəki uğurlu nailiyyətlərini böyük maraqla izləmişəm. Mən qəti əminəm ki, qalan əraziləriniz də Sizin rəhbərliyinizlə işğalçılardan azad ediləcək və Azərbaycan regionda sülhün, sabitliyin və tərəqqinin əsas dayağı olacaqdır.

*Ən səmimi hörmət və arzularla,*

***Sali BERİŞA,***
***Albaniyanın sabiq Prezidenti və Baş naziri***

❖ ❖ ❖

Ali həzrətləri, çox hörmətli cənab Prezident!

İcazə verin, Sizi işğal olunmuş torpaqların azad edilməsində Azərbaycan Ordusunun qazandığı zəfərlər və Qarabağın ürəyi qədim Şuşa şəhərinin işğaldan qurtarılması münasibətilə təbrik edim.

Burada yaşadığım uzun illər ərzində Azərbaycan mənim ikinci Vətənim olub. Mən həmişə öz qüvvəm və imkanlarım daxilində çalışmışam ki, dünya ictimaiyyəti Azərbaycanı əsas prioritetlərin qarşılıqlı anlaşma və qarşılıqlı hörmət olduğu, “multikulturalizmin Azərbaycan modeli”nin isə ölkənin daxili və xarici siyasətinin başlıca istiqamətlərindən biri səviyyəsinə qaldırıldığı dövlət kimi tanısın.

Məruz qaldığım çətin həyat sınağının öhdəsindən gəlməyimdə göstərdiyiniz qayğı və dəstəyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, Uca Tanrının öz lütfünü Sizin, yaxınlarınızın və bütün Azərbaycanın üzərindən əskik etməməsini diləyirəm.

Qarabağ Azərbaycandır!

*Dərin hörmətlə,*

***Aleksandr İŞEİN,***
***Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu***
***Azərbaycan Respublikası, Bakı şəhəri***

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Əziz Mehriban xanım!

Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqını çoxdan gözlənilən Qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanla fəxr edirəm.

*Həmişə Sizin,*

***Oljas SÜLEYMENOV,***
***Qazaxıstanın Xalq yazıçısı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Müzəffər Ali Baş Komandan!

Sizin komandanlığınızla rəşadətli Ordumuz tərəfindən tarixi mədəniyyət mərkəzimiz olan Şuşa şəhərinin 28 illik Ermənistan işğalından azad edilməsi xəbəri Avropada Avropa Azərbaycanlıları Konqresinin ətrafında sıx birləşən Azərbaycan diaspor təşkilatlarının böyük sevincinə səbəb oldu.

Sentyabrın 27-də Ermənistanın atəşkəs razılaşmasını pozaraq, genişmiqyaslı hərbi əməliyyatlara başlamasından dərhal sonra Sizin əmrinizlə şanlı Azərbaycan Ordusunun əks-hücum əməliyyatlarına başlayaraq işğalda olan Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl şəhərlərini və 200-dən çox kəndimizi qısa müddətdə işğaldan azad etdi.

Möhtərəm cənab Prezident!

Sizin dediyiniz “Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar” ifadəsi vətənpərvərlik harayına çevrilmişdi. Şuşa Azərbaycanın incisidir, mədəniyyət və musiqi beşiyidir. Şuşa, heç şübhəsiz, işğaldan azad edilməli idi. Bu böyük işi Sizin komandanlığınızla müzəffər Azərbaycan Ordusu bacardı. Şuşanın Azərbaycana, Azərbaycanın Şuşaya olan 28 illik həsrətinə Siz son qoydunuz. Xalqımızın 30 ilə yaxındır həsrətində olduğu Şuşa şəhəri artıq düşməndən geri alınıb. Şəhidlərimizin qanı yerdə qalmadı! Şəhidlərimizin ruhu şaddır!

Möhtərəm Ali Baş Komandan!

Sizin adınız bu qələbə tarixinin ən gözəl səhifəsində qızıl hərflərlə yazılıb.

İşğal altında olan hər qarış Vətən torpağının, xüsusilə də Şuşanın düşmən tapdağından azad edilməsi üçün göstərdiyiniz dəyanət, qətiyyət və səbrə görə Avropa Azərbaycanlıları Konqresi adından Sizi və şanlı Ordumuzu ürəkdən təbrik edirik.

Biz, Avropada yaşayan azərbaycanlılar Vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edirik. Sizi dəstəkləyirik, Sizin yanınızdayıq və hər bir əmrinizi gözləyirik. İşimiz haqdır, qələbə bizimlədir!

*Hörmətlə,*

***Sahil QASIMOV,***
***Avropa Azərbaycanlıları Konqresinin prezidenti***

❖ ❖ ❖

Əziz Ali Baş Komandan, möhtərəm Prezident.

Şuşamız mübarək olsun! Dövlət Bayrağı Gününüz mübarək olsun! Biz, bütün dünya azərbaycanlıları Şuşanın işğaldan azad olunması xəbərini Sizdən eşitməyi həsrətlə gözləyirdik. Bu illər ərzində biz bir millət kimi mənəvi iztirablar içində yaşamışıq. Amma Siz Ali Baş Komandan kimi bütün Azərbaycan xalqını bu əzab-əziyyətdən azad etdiniz. Həsrətini çəkdiyimiz Şuşanı qaytardınız. Siz bununla bir millət kimi bizim başımızı ucaltdınız.

Biz, Amerika Birləşmiş Ştatlarında və bütün dünyada yaşayan azərbaycanlılar Sizinlə fəxr edirik və hər vaxt Sizinlə qürur duyacağıq. Biz sübut etdik ki, Azərbaycan xalqı səbirli, ağıllı, dövlətini, torpağını və namusunu qorumağı bacaran millətdir.

Yaşasın Azərbaycan xalqı! Yaşasın Azərbaycan əsgəri! Şuşa bizimdir!

Qarabağ Azərbaycandır!

*Hörmətlə,*

***Samir Orucəli oğlu NOVRUZOV,***
***Amerika-Azərbaycan Qarabağ Atlarının Xilası Birliyinin sədri***
***Amerika Birləşmiş Ştatları, Texas ştatı, Hyuston şəhəri***

❖ ❖ ❖

Əziz qardaşımız İlham Heydər oğlu!

Əziz azərbaycanlı qardaşlarımız!

Sizin hər birinizi erməni təcavüzkarlara qarşı apardığınız Vətən müharibəsində möhtəşəm qələbə münasibətilə təbrik edirik!

Bu qələbə Azərbaycan millətinin, türk ruhunun daha da möhkəmlənməsində olduqca əhəmiyyətli mərhələdir. Bu zəfəriniz bizim ümumi tariximizdə mühüm və əlamətdar hadisə kimi layiqli yer tutacaq.

Arzu edirik ki, bu qələbənin nəticələrini uğurla möhkəmləndirəsiniz və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan gündən-günə daha da çiçəklənən bir ölkəyə çevrilsin.

*Hörmətlə,*

***Yermentay SULTANMURAT,***
***“Ümumdünya Türk Xalqları Assambleyası” Beynəlxalq Təşkilatının prezidenti, akademik***
***Qazaxıstan Respublikası***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

İcazə verin, qırğız yazıçıları adından Sizə ölkələrimizin müxtəlif sahələrdə, o cümlədən mədəniyyət sahəsində aktiv qarşılıqlı fəaliyyətinə görə dərin minnətdarlığımızı bildirim. Siz qardaş Azərbaycan xalqının dahi lideri, adı dünya tarixinə qızıl hərflərlə həkk edilmiş Heydər Əliyevin layiqli davamçısısınız.

Çünki məhz Heydər Əliyev türk xalqlarının və dövlətlərinin hərtərəfli əməkdaşlığının inkişafı üçün böyük səy göstərmiş, Qırğızıstanla Azərbaycan arasında diplomatik münasibətlərin qurulması işində əvəzsiz rol oynamışdır. Heydər Əliyevin “Manas” dastanı bizim ümumi dilimizdə yazılmışdır” müdrik kəlamı bu gün də azərbaycanlıların və qırğızların dilində əzbərdir. Bu kəlam bizim qardaş ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsi və genişlənməsi üçün güclü təkan olmuşdur.

Azərbaycanı modernləşdirmək, xalqını öz ətrafında birləşdirmək, dövlətinizi inkişaf səviyyəsinə yüksəltmək kimi tarixi missiya Sizin üzərinizə düşmüşdür. Bu gün heç kəs inkar edə bilməz ki, Siz son dərəcə çətin olan bu missiyanın öhdəsindən layiqincə gəldiniz və beynəlxalq arenada böyük nüfuza sahib, inkişaf etmiş dövlət yaratmağa nail oldunuz.

Biz inanırıq ki, mərhum atanız bu gün Sizin tarixi ədaləti bərpa etmək və işğal olunmuş torpaqları azad etmək işindəki uğurlarınızla fəxr edərdi.

Belə bir gözəl deyim var: “Mehriban qardaşlıq hər cür var-dövlətdən daha qiymətlidir”. Qırğız xalqı da hər cəhətdən ona çox yaxın olan Azərbaycanla bütün sahələrdə dostluq tellərini yüksək dəyərləndirir. Qardaş ölkənin növbəti dəfə ağır sınaqlardan keçdiyi bu günlərdə bizim dualarımız, mənəvi dəstəyimiz Sizinlə olmuşdur. Bizim gücümüz möhkəm birliyimizdədir.

Qırğız yazıçıları Azərbaycanın Qırğızıstandakı səfirliyi ilə sıx əlaqə saxlayırlar. Biz Azərbaycan tarixinin, mədəniyyətinin, ədəbiyyatının ölkəmizdə tanıdılması üçün çoxsaylı birgə tədbirlər keçiririk.

2019-cu ildə ölkələrimizin yazıçılar birlikləri arasında imzalanmış əməkdaşlıq haqqında Memorandum çərçivəsində “Qarabağ hekayələri” toplusu qırğız dilinə tərcümə edilmişdir. Beləliklə, bizim ədəbi əlaqələrimiz sayəsində daimi mədəni mübadilə həyata keçirilir. Azərbaycanlılar üçün Qarabağın necə böyük önəm kəsb etdiyi, onun gözəllikləri barədə artıq qırğız dilinin daşıyıcıları da məlumatlanmış oldular.

Haqq kimin tərəfindədirsə, o güclüdür! Biz qətiyyən şübhə etmirik ki, ədalətsizlikdən və təcavüzkarlıqdan zərər çəkmiş ləyaqətli xalqınız qələbə qazanacaq.

Hərbi əməliyyatlar zonasından 10 kilometrlərlə uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Tərtər, Ağcabədi şəhərlərində dinc əhalinin amansızcasına atəşə tutulmasına heç cür bəraət qazandırıla bilməz. Mülki əhali arasında 92 nəfərin həlak olması və 405 günahsız vətəndaşın yaralanması bizi çox sarsıtdı. Bu cinayətlərə dünya ictimaiyyətinin susmaması üçün hələ nə qədər insan həlak olmalı və zərər çəkməlidir?! Biz bu terrorizmi qətiyyətlə pisləyir və təqsirkarların layiqincə cəzalanmasını tələb edirik.

Çox hörmətli cənab Prezident, bu il beynəlxalq hadisələrlə çox zəngin olmuşdur. Ümid edirik ki, bu il Azərbaycan tarixinə Dağlıq Qarabağ münaqişəsinin öz həllini tapdığı və hər bir azərbaycanlının qəlbinin bir hissəsi olan, bütün yaralardan daha ağrılı olan torpaq həsrətinin, əcdadlarımızın müqəddəs torpaqlarının qayıtdığı il olacaqdır.

Sizə və Sizin qüdrətli xalqınıza böyük daxili güc arzulayırıq. Yaxınlarını itirmiş bütün ailələrə dərin hüznlə başsağlığı veririk.

*Dərin hörmətlə,*

***Nurlan KALIBEKOV,***
***Qırğızıstan Milli Yazıçılar Birliyinin sədri***

# İlham Əliyevin müzəffər hərbi yürüşü



**Torpaqlarımızın azad olunması ilə bağlı Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Möhtərəm İlham Əliyevin Ali Baş Komandanlığı ilə şanlı Azərbaycan Ordusu cəmi 44 gün ərzində torpaqlarımızı azad edərək, 30 ilə yaxın davam edən erməni işğalına son qoydu. Bu tarixi hadisə ilə son bir neçə yüz il ərzində ilk dəfə olaraq Azərbaycan işğal olunmuş torpaqlarını özünə qaytardı, bununla da ərazi bütövlüyümüz təmin edildi.**

Hər bir azərbaycanlı kimi bu Qələbə sevincini yaşayarkən Ümummilli Lider Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də xalqımıza müraciəti gözümün önündə canlandı. Ulu Öndər müraciətində demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ötən 17 ildə Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən, onun ideyalarını inamla həyata keçirən cənab İlham Əliyev Azərbaycan dövlətinin tarixində görünməmiş inkişafı reallığa çevirdi. Ən mühümü odur ki, bu siyasətin nəticəsində indi biz tarixin ən güclü Azərbaycanının vətəndaşları olmağımızla fəxr edirik. Prezident İlham Əliyevin nail olduğu bütün uğurlar Heydər Əliyevin arzularının həyata vəsiqə almasının təsdiqi idi. Nəhayət, Dağlıq Qarabağın işğaldan azad edilməsi ilə İlham Əliyev xalqımızın taleyüklü problemini həll etdi.

Bu Qələbə gözlənilən idi. Hər kəs Dağlıq Qarabağ cəbhəsində yenidən hərbi əməliyyatların başlayacağı təqdirdə Ermənistanın sarsıdıcı məğlubiyyətə uğrayacağına əmin idi. Çünki İlham Əliyev elə bir ordu yaradıb ki, onun qarşısında Ermənistanın duruş gətirməsi tamamilə mümkünsüz idi. Bu illər ərzində möhtərəm Prezident ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlara sadiqlik nümayiş etdirməklə, Ermənistanın bu prosesdəki imitasiyasını böyük səbirlə izləməklə yanaşı, ordu quruculuğu məsələlərini xüsusi diqqət mərkəzində saxlayıb. Azərbaycan Prezidenti müdrik siyasətçidir, uzaqgörəndir. Təcrübə göstərir ki, dövlət başçısı hər bir prosesin gedişatını son nəticəsinə qədər zərgər dəqiqliyi ilə proqnozlaşdırır. Bu mənada cənab İlham Əliyev danışıqlar prosesinin nəticəsiz qalacağını görür, günlərin birində torpaqlarımızın azadlığı uğrunda hökmən gücdən istifadənin zəruriliyini bilirdi. Ona görə ötən 17 ildə ordu quruculuğu İlham Əliyevin inkişaf siyasətinin xüsusi prioritetlərindən birini təşkil edib. Bu baxımdan hər bir azərbaycanlının qürur və fəxarət ünvanlarından biri də Silahlı Qüvvələrimizdir. Ulu Öndərin yaratdığı bu ordu İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 17 ildə böyük inkişaf yolu keçib. Bu dövrdə Azərbaycanda ordu quruculuğu bir gün belə dayanmayıb, əksinə daha da vüsət alıb, sürətlənib. Bunun nəticəsidir ki, Silahlı Qüvvələrimizin, hər bir qoşun növünün döyüş imkanları ən müasir standartlar səviyyəsinə çatdırılıb. Bu məqsədlə inkişaf etmiş hərbi sənaye kompleksinə malik olan dövlətlərdən müasir silah və texnikalar alınaraq ordumuzun arsenalına daxil edilib. **"Bizim ordumuzun son illər ərzində uğurlu inkişafı göz qabağındadır. Bunu Azərbaycan xalqı bilir, görür. Dünyada orduların reytinqlərini tərtib edən sanballı qurumlar da bunu qeyd edir. Bu gün Azərbaycan Ordusu dünyada 50 ən güclü ordu sırasındadır. Biz bunu yorulmaz fəaliyyət nəticəsində əldə etmişik. Çünki mənim prezident kimi fəaliyyətimdə ordu quruculuğu birinci yerdədir"** - deyə Prezident İlham Əliyev bildirib.

Ordumuzun inkişafı və arsenalını gücləndirməsi hərbi sahə üzrə ixtisaslaşmış reytinq agentliklərinin də diqqətindən yayınmayıb. İndiyədək paradlarda nümayiş etdirilən hərbi texnikalar, düşmənə müasir döyüş imkanları ilə zərbələrin vurulması Silahlı Qüvvələrimizin ən güclülər sırasına daxil olmasını şərtləndirib.

Ermənistanın sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribat Azərbaycan Ordusunun öz tarixi missiyasını həyata keçirməsinə vəsilə oldu. Bir-birinin ardınca Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Tərtərin, Xocalının, Xocavəndin kənd və qəsəbələri azad edildi. Hər gün cəbhədən Azərbaycan əsgərinin qələbə dolu müjdələri gəldi və ordumuzun müzəffər yürüşü ilə Ali Baş Komandan İlham Əliyev Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazdı. Hər gün işğaldan azad edilmiş yaşayış məskənlərimizin sıralarına yeniləri əlavə olundu.

Zəngin tariximizin təsdiqi olan Xudafərin körpüsündə oktyabr ayının 18-də bayrağımız ucaldıldı. Qısa vaxtda 132 km-lik İranla dövlət sərhədi işğalçılardan tam təmizləndi. Həmçinin, bütün cəbhələrdə strateji yüksəkliklər ələ keçirildi.

Azərbaycan ictimaiyyətinin gözlədiyi həm də Şuşa idi. Prezident İlham Əliyev də müsahibələrinin birində bəyan etmişdi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Qədim Azərbaycan şəhəri olan Şuşa mədəniyyət məbədimiz, musiqi beşiyimizdir. Şuşa bizim qürur rəmzimiz, milli kimliyimiz, qeyrət qalamız deməkdir. Azərbaycanlılar Şuşanı müqəddəs sayır və ona görə bu şəhərin işğal altında qalması hər birimizin yarası idi.

Noyabrın 8-də, 28 illik həsrətdən sonra Qarabağın mirvarisi Şuşanın rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi ikinci Qarabağ müharibəsində Azərbaycanın ən mühüm qələbələrindən biri oldu. Müharibədə asan qələbə olmur. Hər bir zəfərdə şəhid qanı var. Hər bir şəhər və kəndimiz əsgərlərimizin, zabitlərimizin, gizirlərimizin qanının axması hesabına azad olunub. Uca dağların zirvəsində yerləşən Şuşanın azad edilməsi isə göstərdi ki, Azərbaycan əsgərinin qarşısında işğalçı ordunun tab gətirə bilməsi mümkünsüzdür. Şuşanın alınması ilə əsgərlərimiz düşmənin mümkün saymadığını reallığa çevirdilər, hərb elminin yeni səhifəsini yazdılar, Azərbaycanın hərb tarixini şərəfləndirdilər.

Tarixə səs salan Şuşa döyüşünün sərkərdəsi isə Ali Baş Komandan İlham Əliyevdir. Artıq Azərbaycan Prezidentinin adı çoxsaylı möhtəşəm uğurlarla yanaşı, tariximizə həm də Şuşanı işğaldan azad edən lider kimi həkk olunub. Şuşanı azad etməklə İlham Əliyev bütün xalqımızın nisgilinə son qoydu. Şuşanın işğaldan azad edilməsi ilə möhtərəm İlham Əliyev Azərbaycan tarixinin yeni şərəfli səhifəsini yazdı.

Hərbi əməliyyatların başladığı ilk gündən cənab İlham Əliyev bəyan etdi ki, Ermənistan işğal altında saxladığı rayonlarımızın azad edilməsi ilə bağlı qrafik təqdim etsə, problemin danışıqlar yolu ilə həlli mümkündür. İşğalçı tərəf isə ilk gündən müharibənin diplomatik yolla həllinin mümkünsüzlüyünü dedi. Hər gün ayrı-ayrı dövlətlərin başçılarına zəng edən N.Paşinyan güman edirdi ki, onlar Azərbaycana təsir edəcək, erməni lobbisi ordumuzun müzəffər yürüşünün qarşısını alacaq. Lakin ötən 44 gündə Ermənistan rəhbərliyinin və erməni lobbisinin fikirləşdiyinin tamamilə əksi olan proseslər baş verdi. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. Bu dövrdə Prezident İlham Əliyev çox təzyiqlərlə üzləşdi. Lakin dövlətimizin rəhbəri onların hamısına qətiyyətlə, cəsarətlə sinə gərdi. İlham Əliyev siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanı cəzalandırdı.

Noyabrın 10-da isə Azərbaycan xalqı gözlədiyi müjdəni aldı. Gecə saatlarında xalqa müraciət edən müzəffər Ali Baş Komandan İlham Əliyev şanlı Qələbəmizin - Ermənistanın təslim olmasının müjdəsini verdi. Böyük Qələbə xəbərini xalqımız son dərəcə böyük coşqu ilə qarşıladı. Səhər saatlarından başlayaraq Bakının, ölkəmizin və bütün şəhər və rayonlarının küçə və meydanlarına, parklarına axışan böyüklü-kiçikli milyonlarla insanın bayram şənliyi axşama qədər davam etdi.

Qeyd edim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı imzalanmış üçtərəfli bəyanatda Ermənistanın kapitulyasiyası elan edildi. İlham Əliyevin dediyi kimi, sənədlə Ermənistanın qarşısında qrafik qoyulub və dekabr ayının 1-nə kimi işğalçı ölkə Laçın, Ağdam və Kəlbəcər rayonlarından qalan qüvvələrini çıxaracaq.

Sənədin ən mühüm tərəflərindən də biri odur ki, Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında Ermənistandan keçməklə nəqliyyat əlaqəsi yaradılacaq. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

*Beləliklə, Azərbaycan bu müharibədən qalib çıxdı, Ermənistan isə Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur oldu. Bir vaxtlar işğal siyasəti yürüdən Ermənistan indi təslimçi akta imza atmaqla tarixinin ən utanc səhifəsini yazdı. İşğalçını bu hala salan güclü Azərbaycan dövləti və onun rəhbəridir. Prezident İlham Əliyev sərkərdə qətiyyəti ilə Vətən müharibəsini öz məntiqi sonluğuna qətiyyətlə çatdırdı və ərazi bütövlüyümüzü bərpa etdi. Qələbəmiz mübarək olsun!*

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,***
***Milli Məclisin deputatı***

# NOOLDU, PAŞİNYAN?!



## Felyeton

*Əvvəli 1-ci səh.*

**Nooldu, Paşinyan?!**

Bəs yeni müharibəyə başlayıb yeni ərazilər işğal edirdin!

Tovuza hücum edib neft-qaz kəmərlərini partlatmaq istəyirdin!

Bizə hədə-qorxu gəlirdin, sülh danışıqlarını pozurdun!

**Görürsən adama necə təslim sənədi imzalatdırırlar?**

**Görürsən adama necə etmək istəmədiyini etdirirlər?**

*Nooldu?!*

❖❖❖

**Nooldu, Paşinyan?!**

Bəs Dağlıq Qarabağı müstəqil respublika edirdin?!

Erməni xalqının öz müqəddəratını təyin etmək hüququndan dəm vururdun!

İkinci erməni dövləti yaratmaq eşqinə düşmüşdünüz?!

*Nooldu?!*

Həftə səkkiz mən doqquz Dağlıq Qarabağa gəlirdin!

Şuşadakı asma körpüdə zurna çaldırırdın!

*Nooldu, Paşinyan?!*

İndi də gəl görüm!

**Ay Dağlıq Qarabağı müstəqil respublika etdin, ha!**

**Hanı imzaladığın sənəddə status məsələsi!**

**Yoxdu!**

**Heç olmayacaq da!**

❖❖❖

**Nooldu Paşinyan?!**

Keçilməz səngəriniz, dağılmaz bunkerləriniz bunlar idi?

**Arvadın Qarabağa gəlib burdakı arvadlara avtomat atmağı öyrədirdi.**

*Nooldu!*

**Bəs oğlun Xankəndidə hərbi xidmət keçirdi?**

*Müharibə vaxtı nə anası, nə balası döyüşlərdə göründü...*

❖❖❖

**Nooldu Paşinyan?!**

**Yalvarmadığın dövlət başçısı, yalamadığın daban qalmadı!**

Bütün günü təyyarələrlə silah-sursat, texnika daşıyırdın.

*Nooldu?!*

*Suriyadan PKK-çıları, muzdluları gətirib işğal etdiyin torpaqları əldən vermək istəmirdin.*

*Bəs niyə verdin?*

❖❖❖

**Nooldu, Paşinyan?!**

Bəs müsəlman məscidlərində donuz saxlatdırırdın?

Allahın evini təhqir edirdin!

Gördün Allah adamı necə alçaq, şərəfsiz duruma salır?

Şuşadakı kilsənizin böyründən bir daş qopmuşdu, bunu bütün qohum-əqraban faciəyə çevirdi.

*Nooldu?!*

Görüm həmin kilsəyə gələ biləssən?

Görüm orda dua edib özünü xilas edə biləssən?

**Gördün İlham Əliyev məsciddə donuz saxlayanın özünü necə donuza döndərir?**

**Gördün adamın anasını necə ağladırlar!**

**Di get!**

*Adamı belə şərəfsiz edirlər!*

*Adamı belə diz üstə qoyurlar!*

*Adamı belə itin gününə salırlar!*

**Nooldu, Paşinyan?!**

**Gördünmü ki, Qarabağ Azərbaycandır!**

❖❖❖

Sonda bu möhtəşəm Qələbənin müəllifi İlham Əliyevin xalqa sonuncu müraciətindən bir parçanı da yada salıram:

**"Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla!**

**Rəqs edirdin, nə oldu bəs status, cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status.**

**Yoxdur status və olmayacaq!"**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Qarabağda konstitusion hüquqlarını bərpa etdi

## Bu Qələbə Əsas Qanunumuzun qəbulunun 25-ci ildönümünə böyük töhfə oldu

*Əvvəli 1-ci səh.*

Diplomatik cəbhədə Ermənistanı dalana dirəməklə yanaşı, ordumuzu da gücləndirdik. Hələ 2003-cü ildə andiçmə mərasimində Ulu Öndər Heydər Əliyevin siyasi xəttini davam etdirəcəyini bəyan edən Prezident İlham Əliyevin toxunduğu əsas məsələlərdən biri ordu quruculuğu barədə idi. Ötən 17 ildə Ermənistan statuskvonu saxlamağa çalışanda Azərbaycan Ordusunu gücləndirdi. İlham Əliyevin Azərbaycanda cəmiyyət həyatının bütün sahələrinə yeni standartlar gətirən inkişaf siyasəti ordu quruculuğunda da özünü göstərdi. Ali Baş Komandanın xüsusi nəzarəti altında Azərbaycan Ordusunda həyata keçirilən islahatlar xüsusən keyfiyyət dəyişikliklərini əhatə etdi. Sentyabrın 27-dən başlayan ikinci Qarabağ müharibəsi göstərdi ki, ordumuz hərbi əməliyyatları tamamilə müasir döyüş standartları ilə aparır. Azərbaycanın yüksək dəqiqlikli silahları, pilotsuz uçuş aparatları qarşısında düşmən cəmi 44 gün tab gətirə bildi və sonda təslimçi akta imza atdı. Uğurlu əməliyyatlar zamanı Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın, Tərtər və Xocalı rayonlarının bir sıra kəndlərini, strateji yüksəklikləri işğaldan azad etdi. Ümumilikdə, hərbi kampaniya dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd işğaldan azad olundu.




Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladıqları bəyanat ölkəmizin Vətən müharibəsindəki qələbəsinin hüquqi təsdiqi oldu. Bu bəyanatla işğalçı Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını da boşaltmaqla bağlı öhdəlik götürüb.

### Azad olunan ərazilərdə Konstitusiyada nəzərdə tutulan hüquqlar tam təmin ediləcək

Azərbaycan xalqının milli-mənəvi məbədi olan Şuşa şəhərinin işğaldan azad edilməsi Vətən müharibəsinin ən parlaq səhifələrindən biridir. Qarabağın ürəyi olan Şuşanın azad edilməsi ilə həm də müharibənin taleyi həll olundu və düşmən məğlubiyyət aktına imza atdı. Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də elan etdiyi bu tarixi qələbəmiz Dövlət Bayrağı gününə ən dəyərli töhfə oldu.

Bu gün xalqımız Konstitusiya Gününü qeyd edir. İndi bu hadisəni bizim üçün daha əlamətdar edən müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının qəbulunun 25-ci ildönümünün tamam olması və bu yubiley tarixinin xalqımızın Vətən müharibəsindəki qələbə günlərinə təsadüf etməsidir.

1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar olunmasını istəyərək ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin Konstitusiyasını qəbul etdi. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır. Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə böyük yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı, bütün sahələrin inkişafına təkan verdi, xalqın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan, eyni zamanda, ölkədə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.

2002, 2009 və 2016-cı illərdə Ana Qanuna bir sıra dəyişiklər edilib. Dövlət idarəçiliyinin daha səmərəli və keyfiyyətli fəaliyyətinin təmininə yönələn bu dəyişikliklər qlobal çağırışlara tam adekvat olmaqla, demokratik inkişafın ən müasir və modern tələblərini özündə ehtiva edib.

Konstitusiyada Azərbaycan vətəndaşlarının bütün hüquqları ən demokratik meyarlara uyğun təsbit olunub. Lakin torpaqlarımızı işğal edən Ermənistan yüz minlərlə vətəndaşımızın doğma yurdda təhlükəsiz yaşamaq, azadlıq, mülkiyyət, mənzil toxunulmazlığı və digər konstitusion hüquqlarını pozmuşdu. Şəhər və kəndlərimizin işğaldan azad edilməsindən sonra qarşılaşdığımız acınacaqlı mənzərələr, evlərin daşlarına qədər sökülməsi, təbii sərvətlərimizin talan edilməsi xalqımızın hüquqlarının pozulmasının ayrı-ayrı nümunələridir.

Sentyabrın 27-dən başlanan Vətən müharibəsini qələbə ilə başa vuran Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Bu Qələbə Ana Qanunumuzun qəbulunun 25-ci ildönümünə də böyük töhfə oldu. Ən əsası zəfərimizin müəllifi olan Ali Baş Komandan İlham Əliyev Azərbaycan dövlətinin və bütün xalqımızın Qarabağda konstitusion hüquqlarını bərpa etdi. Tezliklə vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan Konstitusiyasına uyğun olaraq bütün hüquqlarının tam təmin edilməsi istiqamətində mühüm addımlar atılacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Fransa mandatına uyğun olaraq, neytral tərəf kimi çıxış etməli olduğu halda açıq-aşkar ermənipərəst siyasət yürüdür"



Fransanın rəsmi şəxsləri tərəfindən ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın mandatına zidd olaraq birtərəfli, qərəzli və qeyri-obyektiv bəyanatlar səsləndirilməkdədir. Mandatına uyğun olaraq Fransa neytral tərəf kimi çıxış etməli olduğu halda açıq-aşkar ermənipərəst siyasət yürüdür və tamamilə əsassız şəkildə Azərbaycana qarşı ittihamlar irəli sürür.

AZƏRTAC xəbər verir ki, bunu KİV-ə açıqlamasında Prezidentin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanatının qəbul edilməsində Fransanın hər hansı rolu olmayıb. Yəqin ki, Fransa Rusiyanın bu məsələdə rolundan qısqanclıq keçirir. Ermənistan baş nazirinin bu sənədi imzalaması artıq hər şeyi deyir. İndi Fransa ermənilərdən daha çox erməni olmağa cəhd göstərir.

ATƏT-in Minsk qrupunun həmsədrləri adından danışmaq üçün Fransanın səlahiyyəti yoxdur. ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa Ermənistanın Azərbaycana qarşı davam edən işğalının aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsi üçün heç bir addım atmadığı halda indi birtərəfli qaydada canfəşanlıq nümayiş etdirir. Görəsən bu 30 il ərzində Fransanı nə zamansa azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmaması narahat edibmi? Amma bunun əksinə olaraq, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi və beynəlxalq hüququn aliliyinin təmin olunması Fransanı narahat etməkdə davam edir.

Yekunda Fransanın rəsmi qurumlarına onu da xatırlatmaq istərdim ki, Azərbaycanın tarixi şəhəri olan və Azərbaycan xalqının qəlbində xüsusi yeri olan və işğaldan azad edilmiş Şuşa şəhərinin adı "Şuşi" deyil, Şuşadır".

# Milli Məclisdə Qazaxıstanın media nümayəndələri ilə görüş keçirilib





Noyabrın 11-də Milli Məclis Sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyevin Qazaxıstanın ölkəmizdə səfərdə olan politoloq və jurnalistləri ilə görüşü keçirilib.

Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Adil Əliyev Qazaxıstanla Azərbaycan arasında münasibətlərin qədim tarixə malik olduğunu deyib, bu əlaqələrin hazırda yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında mövcud münasibətlərin inkişafında Ümummilli Lider Heydər Əliyevin və Qazaxıstanın ilk Prezidenti Nursultan Nazarbayevin rolunu xüsusi olaraq diqqətə çatdırıb, bu əlaqələrin bu gün də hər iki ölkənin dövlət başçıları tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Vitse-spiker qazaxıstanlı nümayəndələrə Milli Məclisin qanun yaradıcılığı prosesindən danışıb, rəhbərlik etdiyi Gənclər və idman komitəsinin işi barədə geniş məlumat verib.

Sonra Adil Əliyev qonaqların ölkəmizə səfərinin olduqca əlamətdar günlərə təsadüf etdiyini deyib. Qeyd edilib ki, dünəndən etibarən xalqımızın 30 illik nisgilinə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Azərbaycanın möhtəşəm qələbəsi ilə son qoyulub. Uzun illər idi ki, Ermənistan Azərbaycanın 20 faiz ərazisini işğal altında saxlayırdı. İşğalçı dövlət Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn tələblərinə məhəl qoymurdu. Ermənistan öz təcavüzkar siyasətindən əl çəkməyərək bu ilin iyulunda Tovuz rayonunda, sentyabrın 27-də isə cəbhənin müxtəlif istiqamətlərində genişmiqyaslı təxribatlara əl atdı. Buna görə də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan qüdrətli Azərbaycan Ordusuna döyüş əmri verdi. Şanlı Ordumuz qısa zamanda Ermənistan üzərində misilsiz qələbə qazandı. Odur ki, xalqımız sonsuz qələbə sevinci yaşayır, illərdir yurd-yuvasından didərgin salınan bir milyondan çox soydaşımız öz evlərinə qayıtmağa hazırlaşır.

Adil Əliyev Ermənistanın bu illər ərzində xalqımıza qarşı törətdiyi təxribatlardan, döyüş meydanında məğlub olduğunu anlayandan sonra Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini raket atəşinə tutmasından, 100-ə yaxın mülki vətəndaşımızın həlak olmasından da söz açıb. Bildirilib ki, Ermənistanın hücumları nəticəsində ölənlər və yaralananalar arasında uşaqlar, qadınlar və qocalar var. Vitse-spiker qonaqlara təxribatlar zamanı Gəncədə, Bərdədə, Tərtərdə, Ağcabədidə dağıdılan infrastrukturdan, yandırılan mülki obyektlər və fərdi yaşayış evlərindən, ölkəmizin flora və faunasına dəyən külli miqdarda ziyandan danışıb. Vurğulanıb ki, 44 günlük müharibənin sonunda Azərbaycan Ordusu Dağlıq Qarabağın alınmaz qalası sayılan Şuşa şəhərini erməni işğaldan azad edib. Bundan sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə zəfər yürüşü həyata keçirən Ordumuzun qarşısında duruş gətirə bilmədiyini görən Ermənistan sülh sazişi bağlamağa məcbur olub.

Sonra Milli Məclisin deputatları, işçi qrupun üzvləri Eldəniz Səlimov, Ülviyyə Ağayeva, Azər Badamov çıxış edərək böyük sevinc yaşadığımız bu günlərdə dost və qardaş Qazaxıstan nümayəndələrinin səfərini yüksək qiymətləndiriblər. Qazaxıstan parlamenti ilə əlaqələrdən, beynəlxalq qurumlarda qarşılıqlı əməkdaşlıqdan söhbət açıblar. Parlamentlərarası münasibətlərin inkişafında dostluq qruplarının fəaliyyətini, bu sahədə qarşılıqlı səfərlərin və intensiv fikir mübadiləsinin önəmini vurğulayıblar.

Qazaxıstanın "Ea-news.kz" portalının baş redaktoru Nurgali Yusipbay, "Halyk.kz" "YouTube" kanalının və "Altyn-Orda.kz" saytının rəhbəri Serik Malayev, blogger Kuanış Edilxanov, Beynəlxalq Türk Akademiyasının nümayəndəsi Füzuli Məcidli görüşdə çıxış edərək Azərbaycanı möhtəşəm Qələbə münasibətilə təbrik ediblər.

Söhbət zamanı Qazaxıstan mətbuatının bu günlərdə Azərbaycanla bağlı xoş xəbərlərə böyük yer ayırdığı qeyd olunub.

Qonaqlar səfər çərçivəsində Gəncəyə və Bərdəyə gedəcəklərini, erməni təcavüzünün nəticələrini öz gözləri ilə görərək Qazaxıstan mətbuatında geniş işıqlandıracaqlarını bildiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Ukrayna Qarabağda atəşkəsi alqışlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir

"Ukrayna Dağlıq Qarabağ münaqişəsi zonasında Azərbaycan ilə Ermənistan arasında atəşkəs barədə razılaşma əldə edilməsini alqışlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Ukrayna Xarici İşlər Nazirliyinin bəyanatında əks olunub.

Ukrayna XİN-də qeyd ediblər ki, atəşkəsdən sonra növbəti addım regionda sabitliyin və həyat fəaliyyətinin bərpası olmalıdır. Münaqişənin tam nizamlanmasına nail olmaq üçün beynəlxalq səylər davam etdirilməlidir.

Nazirlikdə bildiriblər: "Ukrayna Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü daim və qeyd-şərtsiz dəstəkləyir".

# İki canda bir ürək

# "Dəmir yumruq zəfər qazandı"

## Azərbaycanın Vətən müharibəsindəki tarixi qələbəsi Türkiyə mediasının gündəm mövzusudur




**Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, iki ölkənin həmrəyliyi İkinci Qarabağ müharibəsinin fonunda bir daha təsdiqini tapdı. Hərbi əməliyyatları xüsusi diqqət mərkəzində saxlaması, Azərbaycana yüksək siyasi-mənəvi dəstək göstərməsi Türkiyənin Azərbaycanı heç zaman yalnız qoymayacağını nümayiş etdirdi. Türkiyənin aparıcı qəzetləri və xəbər agentlikləri Azərbaycanın cəbhədəki qələbələri ilə bağlı məlumatları dərin sevinc hissi ilə təqdim etdilər.**

Bu günlərdə Türkiyə qəzetlərinin baş xəbərləri Azərbaycanın tarixi zəfəri barədədir.

"Yeni Şafak" qəzeti bu xəbəri "Dəmir yumruq zəfər qazandı" başlığı ilə manşetdən verib. Prezident İlham Əliyevin xalqa müraciəti zamanı söylədiyi fikirlərə geniş yer ayıran məqalədə yazılır ki, Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi. Azərbaycan əzəli torpaqlarını işğaldan azad etdi, səbirlə gözlədiyi qələbəni qazandı.

"Akşam" qəzetinin "Qarabağ zəfəri" başlıqlı xəbərində yazılır ki, Azərbaycan ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoydu. Azərbaycan Ordusu Ermənistanın silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı. Nəşr yazır ki, sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çox sayda strateji yüksəklik işğaldan azad edildi. Azərbaycan Ordusunun yüksək peşəkarlıqla apardığı əks-hücum əməliyyatı hərb tarixinə bir töhfədir.

"Hürriyet" qəzetinin "Azərbaycan bayram edir" başlıqlı məqaləsində Prezident İlham Əliyevin xalqa müraciəti öz əksini tapıb. Müəllif yazır ki, İlham Əliyevin xalqına müraciət edərək qələbə müjdəsini verməsi Azərbaycanın hər yerində böyük coşqu, sevinc və qürur hissi ilə qeyd edilir: "Qarabağ savaşında şanlı qələbəni qeyd etmək üçün Bakının küçə və meydanlarına çıxan paytaxt sakinlərinin bayram şənliyi gecə saatlarınadək davam edib. İnsanlar bütün gün boyu tarixi Qələbədən doğan sevinc və qürur hisslərini paylaşıb, Azərbaycana bu möhtəşəm zəfəri yaşadan Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər".

"Milliyet" qəzeti də Azərbaycanın qələbəsini geniş işıqlandıran nəşrlər sırasındadır. "Türk dünyası qucaqlaşdı" başlıqlı məqalədə yazılır ki, tarixi Azərbaycan torpaqları öz sahiblərinə qaytarıldı, ədalət bərqərar oldu, dünya bir daha türkün, şanlı Azərbaycan Ordusunun gücünə şahidlik etdi: "28 illik həsrət sona çatdı. Bunu sözlərlə ifadə etmək mümkün deyil. Qarabağ yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün müqəddəsdir, əzizdir, doğmadır".

"Sabah" qəzeti "İki dövlət, bir zəfər" başlıqlı xəbəri manşetdən təqdim edib. Vurğulanır ki, Azərbaycan Prezidentinin yüksək əzmi sayəsində qardaş ölkə tarixinin ən böyük zəfərlərindən birinə şahidlik etdi. Nəşr yazır ki, torpaqların işğaldan azad edilməsi Azərbaycan xalqının təkcə döyüşkən ruhunun nümayişi deyil, həm də tapdanmış heysiyyətinin və milli qürurunun bərpası, dirçəldilməsi deməkdir: "Ermənistanın baş naziri kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Kapitulyasiya - müharibədə məğlub tərəfin qalib gələn tərəfin diktə etdiyi bütün şərtləri qeyd-şərtsiz qəbul etməsi və onu icra etməyi üzərinə götürdüyü bir müqavilədir".

"Bakıya koridor" başlıqlı xəbər "Türkiye" qəzetinin manşetində yer alıb. Bildirilir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda uğurla mübarizə apardı. Döyüş meydanında əsgər və zabitlər qəhrəmanlıq göstərdi, Ermənistana sarsıdıcı zərbələr endirildi. Məqalədə Ağdamın, Kəlbəcərin və Laçın rayonlarının dekabrın 1-dək qaytarılması, bölgəyə Rusiya və Türkiyə sülhməramlılarının yerləşdirilməsi məsələsi əksini tapıb.

"Karar" qəzeti "Qarabağ azaddır" başlıqlı xəbərində Prezident İlham Əliyevin xalqa müraciətinə istinad edərək, müharibənin Azərbaycanın qələbəsi ilə başa çatdığını bildirib. Nəşr yazır ki, Prezident İlham Əliyev bütün şərtləri diktə etdi və Ermənistanın baş naziri bunu qəbul etməyə razı oldu: "Dəfələrlə deyilmişdi ki, bu müharibə həm də Ermənistanın baş nazirinin siyasi karyerasının sonu olacaq və Ermənistanda baş verən proseslər artıq bunu deməyə əsas verir".

Qəzetlərdən "Yeni akit"in "Ermənistan diz çökdü, Qarabağ qurtuldu", "Diriliş postası"nın "Ermənistan təslim oldu", "Milli gazete"nin "Paşinyan məğlub oldu", "Cümhuriyyet"in "İki ölkənin zəfəri", "Milat"ın "Zəfər", "Yeni söz"ün "Qarabağ zəfəri", "Yeni asya"nın "Zəfər coşqusu", "Aydınlık"ın "Qarabağı qurtardıq", "Dokuz sütun"un "Azərbaycanda zəfər coşqusu", "Yeni mesaj"ın "İftixar günü", "Posta"nın "Nə oldu, Paşinyan?" və "Yeni Birlik"in "Azərbaycan zəfər qazandı" başlıqlı xəbərlərində Ordumuzun müharibədəki qələbəsindən bəhs olunur, Azərbaycanın üçrəngli bayrağının doğma Qarabağda, Şuşa şəhərində qürurla dalğalandığı vurğulanır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Yerevanda etirazçılar son ultimatumlarını verdilər: “Paşinyanı Qəzzafinin gününə salmalıyıq”

## Ermənistanda mitinqə çıxan on minlərlə insan artıq baş nazirin istefasını yox, meydanda edamını tələb edir

*Əvvəli 1-ci səh.*

Dünən Yerevanın Azadlıq meydanında müxalifətin əvvəlcədən planlaşdırılan mitinqi keçirilib. Etirazçılar N.Paşinyanın istefasını yox, artıq baş meydanda edamını tələb ediblər. Polis aksiya iştirakçılarını saxlayıb. Saxlananlar arasında parlamentin sabiq vitse-spikeri Eduard Şarmazanov, müxalif partiyaların nümayəndələri də olub.

Aksiyalar noyabrın 10-dan başlanıb. Etirazçılar davamlı şəkildə mitinqlər, yürüşlər keçirir, paytaxtın mərkəzi küçələrini bağlayır və dövlət orqanlarının işinə mane olmağa çalışırlar.







### “Paşinyana edam!”

Ermənistanda vaxtilə hakimiyyətdə olmuş hərbi xunta da indi Paşinyana qarşı fəallaşıb. Onlar müharibədəki məğlubiyyət və təslimolma aktının imzalanmasından sonra baş nazirin ölkə daxilində mövqelərinin zəifləməsindən istifadə etməyə başlayıblar. Paşinyanı devirib yenidən hakimiyyətə gəlmək üçün əllərində olan bütün imkanlardan yararlanmağa çalışırlar. Lakin xalq birmənalı şəkildə Sarkisyan-Koçaryan koalisiyasına da yox deyir.

Azadlıq meydanında keçirilən mitinqdə iştirak edən Lali Ovasanyan adlı sakin deyir ki, səsləndirilən fikirlər niyə bəzilərini narahat edir: “Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Bizlərə keçmiş hakimiyyət nümayəndələrinin adamları deyirlər. Çəkinmədən fikrimi bildirirəm. Sarkisyan da, Paşinyan da, hər ikisi eyni zibildir”.

Anton Melkumyan adlı etirazçı deyir ki, Paşinyan Ermənistana xəyanət etdi: “Bundan əvvəlki dövrdə Sarkisyan vətənimizi, zavodlarımızı, torpaqlarımızın yarısını quldur oliqarxlara, yarısını da xaricilərə satdı. Onun rəhbərliyi altında Ermənistan xaricilər üçün gəlir mənbəyinə çevrildi. Paşinyan gəldikdən sonra da dəyişən bir şey yoxdur. Hər ikisi xalqı yox, öz gələcəklərini fikirləşiblər”.

Anuş Petrosyan adlı sakin isə Paşinyana müraciət edərək soruşub ki, bütün milləti aldatdığına və xəyanət etdiyinə görə nə zaman həbs olunacaqsan: “Müharibə edə bilmirsənsə, bunu açıq söyləyərdin. Övladlarımızı qırdın. Mən mühakimə tələb edirəm. Səni yandırmaq kifayət deyil!”

Emin Navasartiyan adlı erməni bildirib ki, vətənə xəyanət ən ağır cəza səviyyəsində cavablandırılmalıdır: “Paşinyana edam!”

Dezik Poqosyan adlı sakin qeyd edib ki, Paşinyanın hakimiyyətə gəlməsi üçün hər şey etdik: “Gecələr yuxusuz qaldıq, keçmiş hakimiyyətə qarşı bərabər mübarizə apardıq. Paşinyan isə xəyanət etdi. Paşinyanı Müəmmar Qəzzafinin gününə salmalıyıq”.

Etirazçılar Yerevanda yenidən Ermənistan hökumətinin binasına axın ediblər. “Sputnik Ermənistan”nın verdiyi xəbərə görə, bir qrup etirazçı hökumət binasından Ermənistan parlamentinin binasına tərəf yönəlib. Onlar Qarabağla bağlı müqavilədən imtina etmələrini tələb edirlər: “Biz erməni xalqına qarşı yönəlmiş bu müqavilənin ləğvini tələb edirik”.

Yerevanda etirazçılar N.Paşinyanı hakimiyyətə gətirən Açıq Cəmiyyət Fondunun (Soros Fondu) ofisinə də hücum ediblər. “4rd.am” saytı yazır ki, etirazçılar ofisin qapısını sındıraraq içəri daxil olublar və bütün əşyaları dağıdıblar.

### Tsarukyan yenidən həbs edildi

Ermənistanda müxalif “Çiçəklənən Ermənistan” partiyasının rəhbəri, keçmiş oliqarx Qaqik Tsarukyan Milli Təhlükəsizlik Xidmətinin (MTX) əməkdaşları tərəfindən saxlanılıb. Bu haqda onun partiyasının mətbuat katibi İvetta Tonoyan məlumat verib. Bildirilir ki, Tsarukyanın saxlanılması müxalifət partiyalarının təyin edilmiş mitinqi ilə bağlıdır. “Natamamlıq kompleksindən, qorxudan uzaqlaşmaq əvəzinə hakimiyyət növbəti dəfə Tsarukyanı saxlayır”, - deyə o bildirib. Qeyd olunub ki, üç milyon insanın hamısını həbs etmək və ya saxlamaq mümkün deyil. Hamı başa düşür ki, hakimiyyət bu sənədin imzalanmasından sonra məsuliyyəti başqalarının üstünə atmağa çalışır.

Xatırladaq ki, baş nazir Paşinyan Qaqik Tsarukyanı müharibədən əvvəl də həbs etmişdi və hərbi əməliyyatlar ermənilərin məğlubiyyətlər seriyası ilə davam edəndə onu azadlığa buraxmışdı.

Bu arada Ermənistanın sabiq prezidenti Serj Sarkisyan da MTX-ya çağırılıb.





### “Baş nazir erməni xalqına xəyanət edib”

Yaxın Şərq və Mərkəzi Asiya ölkələrinin öyrənilməsi Mərkəzinin direktoru, erməni əsilli rusiyalı politoloq Semyon Baqdasarov Ermənistanın baş naziri Nikol Paşinyan və onun silahdaşları üçün ölüm hökmü tələb edir. Bu barədə öz sosial şəbəkəsində paylaşım edən Baqdasarov yazıb ki, Yerevanda dəfələrlə xəbərdarlıq etdiyi hadisələr baş verir. O bildirib: “Xaini tapın, onu və bütün “Soros dəstəsini” boynundan tutub Hərbi Məhkəmənin mühakiməsinə verin. Satqın və vətən xaini kimi mühakimə edin”.

S.Baqdasarov Paşinyanın hakimiyyətə gəlməsinin təsadüfi olmadığını düşünür: “Soros onu hakimiyyətə elə-belə gətirməyib. Yalnız tənbəllər Sorosun dünyanın böyük maliyyə şirkətləri ilə əlaqəsi barədə danışmırdı. Bu, Qarabağı və Zəngəzuru təslim etmək, həmin ərazilərdən Türkiyəyə karbohidrogenləri aparan boru kəmərləri sisteminin açılması məqsədilə hakimiyyətə qəsdən gəlmək idi. Paşinyan erməni xalqına xəyanət edib. Hərbi Tribunal tərəfindən mühakimə olunmalıdır. Ölüm cəzasına müvəqqəti moratorium ləğv edilməlidir. Paşinyan və ortaqlarını divara söykəmək lazımdır”.

### “Bu gün Nikol və vətən arasında böyük seçim günüdür”

Ermənistan Milli Məclisinin üç parlament fraksiyası - “Daşnaksütyun”, XDP və “Ədalət” partiyaları Qarabağ separatçılarının lideri Arayik Arutyunyanın istefasını tələb edib. Bunu “Ədalət” partiyasının parlament fraksiyasının millət vəkili Metaxe Hakobyan Ermənistan parlamentinin binası qarşısında keçirilən mitinqdə deyib.

Ermənistan prezidenti Armen Sarkisyan, “Daşnaksütyun” partiyasının parlamentdəki fraksiyasının nümayəndəsi Armen Rüstəmyan və partiyanın ali orqanının üzvü Arsvik Minasyan ölkənin baş naziri Nikol Paşinyan, eləcə də Rusiya və Azərbaycan prezidentləri tərəfindən imzalanmış Qarabağla bağlı üçtərəfli bəyanatı müzakirə ediblər. Hazırkı vəziyyətə görə əsas məsuliyyəti hakimiyyətin daşıdığını bildirən daşnakların nümayəndələri mövcud risklərdən narahat olduqlarını vurğulayıb, həmçinin mövcud vəziyyətin aradan qaldırılması ilə bağlı fikirlərini təqdim ediblər. Bildirilib ki, Qarabağ problemi ilə bağlı, ümummilli əhəmiyyət kəsb edən məsələ kimi, ümumerməni konsensusuna nail olunmalıdır.

Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyan isə “Ilur.am” saytına verdiyi açıqlamasında bildirib ki, vətəndaş müharibəsi təhlükəsindən qaçmaq və bütün ziddiyyətləri müstəsna olaraq konstitusiya yolu ilə həll etmək lazımdır: “Vətəndaş müharibəsi, Türkiyə-Azərbaycan birliyinə ən böyük hədiyyə olmaqla yanaşı, Qarabağ və Ermənistan üçün, bütün ermənilər üçün fəlakət olar”.

Ter-Petrosyan ümid edir ki, siyasi partiyalar, ictimai-siyasi qruplar, güc strukturları, ziyalıların görkəmli nümayəndələri və Ermənistanın taleyinə görə məsuliyyət hiss edən bütün şəxslər bu cür fəlakətli nəticələrin qarşısını almaq üçün bütün təsir vasitələrindən və nüfuzlarından istifadə edəcəklər.

Ermənistan parlamentinin sabiq vitse-spikeri Arpine Ovannisyan deyib ki, N.Paşinyanın kənarlaşdırılması bizə nəyisə dəyişəcəyimizə ümid verəcək: “Bu gün 11 noyabrdır. 4 gün sonra təslim olmaqla bağlı imzalanmış utancverici müqavilə ilə Kəlbəcərdən çıxmalıyıq. Dünəndən bəri məndən çoxları nə edəcəyimizi soruşurlar. Cavab verirəm, hələ bir şans var. Bunun üçün Nikol Paşinyanın getməsini tələb etmək lazımdır. Yalnız Nikolun getməsi ilə nəyisə dəyişə biləcəyimizə ümid yaranacaq. İki il əvvəl biz Nikolu seçdik. Deməli, vətəni seçməli idik. Bu gün yenə də Nikol və vətən arasında böyük seçim günüdür”.

### Məğlubiyyət etirafları

Nikol Paşinyan isə “Facebook” səhifəsində bəyan edib ki, Rusiyanın iştirakı ilə Qarabağa dair əldə edilən razılaşma erməni qoşunlarının mühasirəyə alınmasının və tam darmadağın edilməsinin qarşısını aldı. O deyib ki, hərbi əməliyyatların davam etməsi halında Stepanakertin (Xankəndi-red.) itirilməsi təhdidi yaranacaqdı: “Baş qərargah mənə məruzə etdi ki, resurslarla bağlı bizim problemlərimiz var. Artsaxın (Dağlıq Qarabağ-red.) siyasi rəhbərliyi də bu mövqeyi bölüşdü. İmzalanmış sənəd sayəsində biz hərbi əməliyyatların davam etməsi halında əldə edə bilməyəcəyimizi qazandıq. Stepanakert mahiyyətcə tam müdafiəsiz qalmışdı. Əgər müharibə davam etsəydi, erməni tərəfi nəinki Stepanakerti, eləcə də Martuni və Əsgəranı da itirəcəkdi”.

Paşinyan qeyd edib ki, bunun ardınca növbə ikinci, üçüncü, dördüncü müdafiə rayonlarına çatacaqdı və hərbçilər mühasirəyə düşəcəkdi: Nəticədə kollaps baş verəcəkdi. Məhz bu əsasla belə qərar qəbul edildi. Təsadüfi deyil ki, bu günlərdə hərbçilər ön xətdən videoçarxlar göndərib qəbul edilən qərarı dəstəkləyirlər. Bütün həqiqət bax budur”.

Ermənistan Baş Qərargah rəisi Onik Qasparyan deyib ki, baş nazir Paşinyan bu qərarı həm təklifimə, həm də vəziyyətin hərtərəfli qiymətləndirilməsinin nəticələrini nəzərə alaraq verdi: “Hər hansı bir fərziyyədən asılı olmayaraq, bu qərarın doğru olduğunu düşünürəm. Bu, bizim üçün çox acı bir həqiqətdir, ancaq vəziyyətin obyektiv qiymətləndirilməsinin nəticəsi idi”.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# İlham Əliyevin möhtəşəm zəfəri

*Əvvəli 1-ci səh.*

Deyirik ki, Laçın da, Şuşa da, Kəlbəcər də, Ağdam da, Füzuli də, Cəbrayıl da, Zəngilan da, Qubadlı da, Qarabağ da bizimdir. Bir anın içində, yüz minlərlə köçkün vətəndə qəribçilikdən qurtuldu.

Əzmkar sərkərdəmiz bir həmlədəcə düşmənin belini sındırdı, onu diz çökməyə məcbur etdi. Sülh üçün yalvarmaq məcburiyyətinə məhkum elədi.

Çünki Yer üzündə qorxaqlıq, alçaqlıq, riyakarlıq, tamahkarlıq, namərdlik və bu kimi insanlığa xas olmayan çoxlu sayda eybəcər sifətləri təcəssüm etdirən erməni vandalları sülhün nə olduğunu belə bilmirlər. Mütləqdir ki, başlarına yumruğu zərblə endirəsən və bunu da möhtərəm Prezidentimiz İlham Əliyev layiqi ilə yerinə yetirdi. Ermənilərin xəstə təfəkkürlərinin məhsulu olan Qarabağ iştahlarını başlarında çatlatdı.

Və Ali Baş Komandanımız noyabrın 10-da bir qərinəlik Vətən həsrətimizin sona yetməsini, şanlı Qələbəmizin - Ermənistanın təslim olmasının müjdəsini də verdi.

Nəhayət ki, haqq-ədalət yerini tutdu, 30 il davam edən işğala son qoyuldu.

Bütün Azərbaycan xalqı bu tarixi zəfərin qürurunu paylaşmaq üçün küçələrə axışdı, sevinc göz yaşlarımız selə döndü. İndi yurdumuzun dörd bir yanında əllərində ay-ulduzlu üçrəngli bayraqlar dalğalandıran, Müzəffər Ali Baş Komandanımızın portretlərini tutan milyonlarla insan rəşadətli Ordumuza, qalib Əsgərimizə, Prezidentimizə minnətdarlıqlarını ifadə etmək coşqusu yaşayırlar.

## Min illərin o tayında qürurla xatırlanacaq möhtəşəm Qələbənin şahidi olduq

İlahi, necə xoşbəxt taleyə malik bir nəsilik. Min illərin o tayında qürurla xatırlanacaq möhtəşəm Qələbə günlərinin canlı şahidləriyik. Bu qələbədə hər birimizin azacıq da olsa payı oldu. Ön səngərdə, arxa cəbhədə müsəlləh əsgərə çevrildik. Ordumuza dəstək olmaq üçün hər birimiz öz sahəmizdə əlimizdən gələnin ən yaxşısını etməyə çalışdıq. Və qəhrəman əsgərlərimiz üçrəngli müqəddəs bayraqlarımızı düşmən tapdağından azad edilən Vətən torpaqlarımızda dalğalandırdıqca qəlbimiz fərəhdən dağa döndü, qürurlandıq.

Qalibiyyətinlə fəxr edirik, cənab Ali Baş Komandan!

Zəfərinə alqış olsun, ey qüdrətli Azərbaycan Ordusu!

Ruhunuz qarşısında baş əyirik, torpaqlarımız uğrunda şəhid olan bütün qəhrəman oğullarımız, qızlarımız!

Bayraqları Qarabağda dalğalanan Azərbaycan!

Qələbən mübarək!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Türkiyəli qonaqlar Naxçıvanın tarix və mədəniyyət obyektləri ilə tanış olublar



**Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvanın tarix və mədəniyyət obyektləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvləri əvvəlcə Naxçıvan şəhərində Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Ümummilli Lider Heydər Əliyevin abidələrini ziyarət edib, Heydər Əliyev Muzeyində olublar.

Məlumat verilib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı sərəncamla yaradılıb və həmin ilin may ayının 10-da fəaliyyətə başlayıb. Muzeydəki eksponatlar görkəmli dövlət xadiminin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallardan, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlardan, imzalanmış protokol və müqavilələrdən, məktub və teleqramlardan, istifadə etdiyi xatirə əşyalarından, Ulu Öndərin şərəfinə toxunmuş xalçalardan, çəkilmiş portretlərdən, tarixi fotolardan və sənədli filmlərdən ibarətdir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılıb. Dahi şəxsiyyətin muzeylərə sığmayan zəngin ömür yolunu əks etdirən dəyərli ekspozisiyada Ümummilli Liderin uşaqlıq və gənclik dövrü, təhsil illəri, ilk əmək fəaliyyəti, 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyinin birinci dövrü, Moskvada çalışdığı və yaşadığı dövr, Naxçıvana qayıdışı, muxtar respublikaya rəhbərlik etdiyi illər zəngin materiallarla nümayiş etdirilir.

Sonra türkiyəli qonaqlar Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət ediblər.



# Qarabağnaməm İlhamdır...



## "Şuşaya bir nəfəs qədər yaxınıq"
### İlham ƏLİYEV

## Poema

*Bu gün mənim*
*şeirim, sözüm,*
*hecam,*
*qafiyəm*
*İlhamdı.*
*"Qarabağ -*
*Azərbaycandı!",*
*Qarabağnaməm,*
*İlhamdı.*

***Müəllif***

Ordu kənardan
yeridi,
bilmədik, hardan
yeridi.
Yüz min əlisilahlı can,
yüz min qəhrəman yeridi.
Top yeridi,
tank yeridi,
topların,
tankların üstə
Üçrəngli bayraq
yeridi.
Dağlıq Qarabağ
üstünə,
Aran Qarabağ
yeridi.
Sıralandı
nəsil-
nəsil,
düz on milyon xalq,
yeridi.
Yuxulu-oyaq,
yeridi.
Ölkə -
ölkədən
yeridi,
paytaxt -
paytaxtdan
yeridi.
Dedilər,
möhkəm dayanın,
bu dəfə torpaq
yeridi.
Dedilər,
otuz il keçir,
daha gecdi,
VAXT
yeridi.

**II.**

Qoşunların
qabağında
sən yeridin
bayraq kimi.
Əsən küləklər,
yaydılar,
bir səs kimi,
soraq kimi.
Özün də bir
silah kimi.
sözün də bir
silah kimi.
Neçə dildə
hər tarixi
müsahibən,
səngəriydi,
yanında xalq,
bir də vətən.

Öz yazdığı
Bəyanatı,
nə Millətlər
Təşkilatı,
nə başqa bir
diplomatı,
bizcə,
açıb -
ağartmadı,
gündəliyə
çıxartmadı,
qoşun-filan
yeritmədi.
Bu nüfuzlu
şəxsiyyətlər,
nüfuzlu bir
iş görmədi.

İşğalçının
susdu
himayədarları -
nə ölmədi,
nə itmədi.
Zaman-zaman
sınamışdın
sən onları.
Geyib hərbi
paqonları
"Yox" deyənə,
sən "Hə" dedin,
hökmünü
hökümlə dedin:
uçan mərmilər
dilində,
səngərdə - səngər
dilində.

Birinci - əsgər
dilində,
Deyilənlər,
qızdırırdı könlümüzü,
Könlümüzdə: Ağdam,
Şuşa,

Cıdır düzü!
Könlümüzdə: Sən,
Ərdoğan.
İki qardaş,
İki sirdaş.
Türkün möhkəm dayaqları,
Bayrağı və
Bayraqdarı!
O "Bir millət, iki dövlət!",
Ulu Öndərə
min rəhmət!

**III.**

Sənin bu zəfər yürüşün,
fəlsəfi dünyagörüşün,
nə istəyir, Zəmanədən,
açıq deyir ya Zamandan,
Cənab Ali
Baş Komandan:
Böhtandan,
yalandan uzaq,
bir açıq söz,
bir İttifaq.
Ədavət demir,
ədalət,
tamam real bir cəmiyyət!
Kişidən -
əsl kişilik!
(Biz kişinin
öz dilindən
eşitmişik).

Plutarxı çağırıram,
qədim dünyaya
üz tutub.
"Qarabağ -
Azərbaycandı!",
deyin, məni
bu söz tutub.
O, əvəzsiz vəsf elədi
ötən hərbi yürüşləri.
Azərbaycan,
İlham olsun
qoy sonuncu şah əsəri.
Millətimin adı olsun,
bu döyüş ovqatı olsun.
Onun yaşamaq həvəsi,
İlk Vətən müharibəsi.
Milli birliyə səsləmək,
"Gücümüz-birliyimizdi!" -
bu sözü də
belə demək!

Əynində əsgər paltarı,
(Geyinmədin
hər paltarı).
Ürəyində məhəbbətin,
haqq yolunda
qətiyyətin.
Nə pələng dərisi
geydin,
nə qılınc -
qalxan gəzdirdin.

Nə tac qoydun,
hər yanı
daş-qaş içində.
Anıldın da Şərqdə-Qərbdə,
şərəfli
tay-tuş içində.

Tarixini yazan-pozan
az olmadı,
Başdan - divan
tutulanda,
yerdən - etiraz
olmadı.
Ər oğullar,
danıldılar.
Qədim şahlar,
Şahzadələr,
od içində
qan içində
döyüşdülər.
Bizi şahdan, şahzadədən
irzikdirib,
döndərdilər.
Bizi başqa,
gedər-gəlməz,
o yollara
göndərdilər.

Birindən - bircə bayatı,
birindən - bircə soyadı,
birindən - bircə söz qaldı,
külün altında - köz qaldı.
Demədilər, gizlətdilər
hər dəfə
hünərimizi.
Biz özgədən istədik
öz yerimizi.
Tək yerimi?!
Baxtımızı!
İndi də
torpağımızı.
O gün dedim bir əsgərə, -
- Qoruyun,
bir-birinizi.
Təyyarələr görə bilər
yerdə sizi?
- Görə bilər,
dönə bilməz amma geri.
Belə dedi,
ordumuzun
sıradakı bir əsgəri.

Yadımdadı
rusiyalı
jurnalistin
bir söhbəti,
heyif, özü
eşitmədi.
O deyirdi: hələ belə
İgid insan,
görməmişəm, insanları
tanıyandan.
Azərbaycan əsgəriydi,
adı Vəzir,
özü əsir.
Məğruruydu bu biri də,
o biri də.
Xilas edib gətirmişdi
yaralı bir
əsiri də.
Get! - dedilər, ona çıx, get!
düşmənləri,
ermənilər.
Əfv eləyin, dedim onda,
elədilər.
Get! - dedilər, ona yenə
ermənilər.
o gedirdi, yanındakı
kölgəsiylə
ikiydilər.
Nə qədər də güc olsaydı,
ayağında, -
o cür yeriyə bilməzdi,
Şekspirin
qəhrəmanı,
o güllələr
qabağında.
Bir yəhudi jurnalisti,
tamam başqa
bir söz dedi:

"Azərbaycan əsgərinə,
fikir verin, -
Çatmaz ona
heç ilahi
qəhrəmanı,
Şekspirin!"
Cənab Ali
Baş Komandan,
Sən dedin ki,
dahi xalqdı,
Azərbaycan!
Varaqladın,
varaq-varaq
bu tarixi,
Sən yaz daim
biz oxuyaq,
bu tarixi!

(Yerdə millətim qoruyur,
Allahım,
göydə sən qoru.
gözdən,
ya nəzərdən qoru.
Böhtandı, şərdi -
düşməni,
o böhtandan,
şərdən qoru.
Yerdən başqa
yerimiz yox,
bəşəri
bəşərdən qoru.)

**IV.**

Şəhidləri basdırmırıq,
biz əkirik,
o, bitəcək.
yerdən qisas göyərəcək.
qayıdacaq,
o gələcək!..."
Yer üzündə hansı ana,
belə xeyir-dua verib,
şəhid gedən
balasına?!
Bəlkə bu son laylasıdı -
belə donan
bu göz yaşı?
Ana-bala harayıdı,
ya bu hücum
çağırışı?!

Başqadır Qələbə,
Uğur, -
milləti tanımaq olmur.
İndi vətən -
vətən boyda
bir səngərdi.
Millət - on milyon
əsgərdi.
Millət - şəhid atasının,
bir də şəhid
övladının
əlindədi.
Qələbəmiz - Kəlbəcərə
gedən yolun
eşitdim
əvvəlindədi.

Dəyişibdi
böyüyümüz,
uşağımız.
Topların
ağzından çıxır
Qarabağ
İntibahımız!
Asta yeri,
ziyarətə
gələn gəlin,
yer altdakı
o naməlum
bir heykəlin,
oyaq ruhu
yer üstündən
nigarandı.
Harda Şəhid
qəbri gördün,
ora -
Fəxri Xiyabandı.

**V.**

Cənab Ali
Baş Komandan,
qarşındakı
bayaq dedim:
aravuran,
intriqan,
o da düşük,
o da düşmən!
Danışırdı bir görüşdə,
tanış əsgər:
"Qovlamışdıq,
əclafları,
getmişdilər.
Sonra mərmi
yağdırdılar.
uçurdular,
taladılar,
dağıtdılar.
yer tapmadıq,
sancmağa
bayrağımızı.
Əyildim,
öpdüm,
ağladım,
yaralı torpağımızı..."

**VI.**

Mən sevindim,
qürurlandım,
çəkiləndə sənin adın.
Rus deyir: "QİMO" məktəbi!
- Moskva, paytaxt təhsili,
öz biliyi,
bir sərkərdə aliliyi!
Müəlliməm,
Alqışladım,
müəllimin
ürəyini.
Məndən sonra
başqasına
danışırdı
o, rəyini.

"Ulu Öndər məktəbidi" -
bunu burda
biz deyirik,
elə biz də
düz deyirik.

Qızıl Arslan Atabəyin,
varisidi.
hələ yolun yarısıdı.
Dünya özü bir az Səbir,
bir az Möhlət
dünyasıdı.
"Asəfi-Kəf" möcüzəsi! -
bir eşq içib,
ülfət içib,
ilahi bir qüvvət içib,
bu da - bir Tanrı töhfəsi!
Burda ana laylasına
yatan uşaq,
sonra Ata çağırışına
oyanıbdı,
səndən qabaq,
məndən qabaq.

Zaman deyir,
Tarix deyir: ermənilər,
istədilər, -
sərhədləri pozulsun,
orda,
hardasa,
qalxsın böyük rus ordusu.
Dalınca, başqa ölkələr,
Fəlakətlər,
təhlükələr,
daha nələr!
Tilsim qırdı,
düyün açdı,
sirli düyün.
o nə bir eşitdiyim,
nə sənin bir yol gördüyün!
O sərkərdə!
o qəhrəman!
Şahidmi?
Biz: Tarix,
Zaman.

Oğul, - deyib, yollar-izlər
öpdü onun ayağını,
o da öpdü, Ana deyib,
Qarabağda,
Azərbaycan
torpağını.

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

# Qarabağda ədaləti bərpa etmək tarixi missiyadır



**Bu yaxınlarda katolikos II Qareginin bütün ermənilərі müharibəyə çağırmasından qətiyyən təəccüblənmək lazım deyildir. Çünki belə davranış erməni kilsəsi üçün yeni bir şey olmayıb, fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Uzun əsrlərdir ki, erməni kilsəsi və din xadimləri öz fəaliyyətləri ilə sülh və birgəyaşayış dini olan xristianlığa daim ləkə gətirib və eyni zamanda son 200 ilə yaxın dövrdə yaranmış mürəkkəb, çətin anlarda Rusiyanın və rus xalqının ayaqlarının altını qazıb, ona arxadan zərbə vurublar. Gəlin baxaq bu barədə Azərbaycan, Rusiya və Gürcüstan arxivlərində saxlanılan yüzlərlə ən mötəbər arxiv sənədlərindən bəziləri nə deyir?**

# Erməni kilsəsinin xristianlıq və Rusiya əleyhinə fəaliyyətləri: *tarixdən günümüzə*





Çar Rusiyası dövlət orqanlarının XIX əsrin sonlarına aid rəsmi sənədləri təsdiq edir ki, erməni kilsəsi və din xadimləri sülh dini olan xristianlığın gözdən düşürülməsində, xalqlar arasında düşmənçilik toxumunun səpilməsində müstəsna rol oynayıblar, Rusiyaya və rus xalqına nifrət edərək arxadan zərbə vurublar. Bununla əlaqədar olaraq Qafqaz Canişinliyinin 1896-cı il 17 fevral tarixli 195 №-li məlumatında yazılırdı ki, Aleksandropolda keşiş Ter-Şuşeq erməni gənclərini silahlı bandalara qoşulmağa təhrik edir. Həmin bandalar Cənubi Qafqazda ictimai təhlükəsizliyi pozan cinayətkar elementlərdən ibarət idi.

Qan tökməyə çağıran təkcə bu din xadimi deyildi. Digərləri də var idi. Qafqaz canişini vəzifəsini icra edən general-leytenant Freze çar Rusiyasının daxili işlər nazirinə 1896-cı il aprelin 25-də göndərdiyi 5205 №-li məlumatında yazırdı: *"İrəvan quberniyasının Təzəkənd kənd keşişi Ter-Tevetoros Mnaçakanov Sarkisyans erməniləri müsəlmanlara (azərbaycanlılara - M.Q.) qarşı qəddarlıq həyata keçirməyə təhrik edir".*

Erməni keşişləri təkcə düşmənçilik təbliğatı aparıb qarşıdurmaya, qan tökməyə təhrik etmirdilər, eyni zamanda, Allahın evi olan kilsələrin zirzəmilərini silah və sursat anbarına çevirirdilər. Bununla bağlı olaraq İrəvan qubernatoru çar Rusiyasının daxili işlər nazirinə 1896-cı il 15 iyul tarixli 1036 №-li məlumatında vurğulayırdı:

*"Arazın İran hissəsində yerləşən Culfadakı kilsə Türkiyədəki ermənilərə silah verilməsi üçün anbara çevrilmişdir".*

Erməni kilsəsi, eyni zamanda Cənubi Qafqazda erməni ünsürünün rolunu artırmaq üçün hiyləgər manevrlər edərək Rusiya hakimiyyət orqanlarını və rusların nüfuzunu zəiflətmək üçün fəaliyyət göstərir və ayaqlarının altını qazırdı. Bütün imperiya ərazisində yazışmalar rus dilində aparıldığı halda, erməni kilsəsi dövlət müəssisələri ilə yazışmaları erməni dilində aparır, kilsə pullarını istədiyi kimi, nəzarətsiz xərcləyir və hərc-mərclik yaradırdı. İmperiya orqanlarını gözdən düşürən bu fəaliyyət barəsində Tiflis quberniya jandarma idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Debil "Erməni arximandriti Ağavelyantsın 1903-cü ilin fevral ayında zərərli fəaliyyətləri haqqında" adlı 15 mart tarixli məruzəsində yazırdı ki, erməni kilsəsi hərc-mərclik yaradır. Bu sahədə qayda-qanun yaratmaq məqsədilə Qafqaz canişini knyaz Q.S.Qolitsın 1903-cü ildə erməni kilsəsinin əmlakının idarə edilməsi və hökumətin nəzarətinə verilməsi haqqında qərar qəbul olunması məsələsini gündəliyə gətirdi. Təklif erməni kilsəsi və Daşnaksütyun tərəfindən etirazla qarşılansa da, imperator II Nikolay 1903-cü il iyunun 12-də erməni-qriqorian kilsəsinin mülkiyyətinin idarəsinin hökumət təsisatlarında mərkəzləşdirilməsi, onun mövcudluğunu təmin edən vəsait və mülkiyyətin Xalq Maarif Nazirliyinin sərəncamına verilməsi haqqında Nazirlər Şurasının əsasnaməsini təsdiq etdi.

Kilsə və Daşnaksütyun bu hadisədən bütün erməni ünsürünün birləşdirilməsi üçün istifadə etdilər. Daşnaklar və erməni kilsə xadimləri dövlət hakimiyyət orqanlarına qarşı silahlı müqavimət göstərdilər. 1903-cü ilin avqust ayında Tiflisdə Van kilsəsinin yanında ermənilər və polis arasında toqquşma baş verdi. Qarşıdurmada yaralanan və xəsarət alanlar oldu. Baş verən hadisə barədə Qafqaz canişinin mülki hissəsinin rəisi 1903-cü il 19 dekabr tarixli məktubunda çar Rusiyasının daxili işlər naziri V.K.fon Pleveyə yazırdı ki, ermənilər Tiflisdə erməni kilsəsi qarşısında sui-qəsdlər törətdilər.

Qəbul edilən qərardan qəzəblənən erməni kilsəsi və terror təşkilatları yüksək rütbəli hakimiyyət nümayəndələrinə qarşı terrora hazırlaşmağa başladılar. Jandarma orqanlarının hazırladığı "Erməni terrorçularının izlənməsi üzrə iş. 25.10.-13.12.1903" adlı sənəddə yazılırdı ki, erməni terrorçularının imperator II Nikolaya sui-qəsd hazırlamaları barədə şayiələr gəzir. Lakin sui-qəsd imperatora deyil, canişin Q.S.Qolitsınə edildi. Canişin öldürüləcəyi ilə bağlı hələ 1903-cü il oktyabrın 18-də erməni komitəçilərindən erməni hərfləri ilə "A.K.T" imzası ilə yazılmış bir məktub almışdı. Tiflis jandarma idarəsinin rəisi 1904-cü il 15 may tarixli 3014 saylı məxfi məktubunda canişinə 3 və 13 deyil, 100 və daha çox erməninin sui-qəsd etmək istədiyi barədə məlumatlar olduğu yazılmışdır. Az müddət keçmiş, oktyabrın 14-də erməni terrorçuları Qafqaz canişini knyaz Q.S.Qolitsınə sui-qəsd etdilər. Lakin o, sağ qaldı. Sankt-Peterburqa çağırılan canişin bir daha Cənubi Qafqaza qayıtmadı.

Kilsə və terrorçuların bu cinayətkar hərəkətlərini erməni ziyalıları və din adamları bəyənir, tacirləri onu qəbul etmir, kəndlilər isə qorxurdular. Bununla bağlı olaraq çarizm hakimiyyət orqanlarının hazırladığı "Erməni hərəkatının qısa oçerki" adlı sənədində yazılırdı: *"Rusiya hakimiyyəti üçün ziyanlı elementlər erməni ziyalıları və din adamlarıdır".*

Erməni kilsəsi daşnak terrorçularının toplaşdığı yerə çevrilmişdi. Daşnaksütyun kilsə xadimləri seçilərkən öz namizədini keçirməyə çalışır və ona nail də olurdu. Bununla əlaqədar olaraq İrəvan quberniya jandarma idarəsinin rəisi Daxili İşlər Nazirliyinin Polis Departamentinə 1903-cü ilin noyabr ayında yazdığı 1288 №-li məxfi raportunda vurğulayırdı: *"İrəvan kilsəsinin keşişi Sukias Ter-Qriqoryan Daşnaksütyun Partiyasının üzvüdür".*

Kilsə və terror təşkilatları bərabər hərəkət edirdilər. Onların fəaliyyəti həm xristianlığı, həm də Rusiya hakimiyyətini gözdən düşürürdü.

Çarizm güzəştə gedərək erməni kilsəsinin əmlakını geri qaytardı. Lakin Daşnaksütyun bunu öz qələbəsi kimi qələmə verməyə başladı. Ermənilər kilsə əmlakının qaytarılmasını yalnız Daşnaksütyunun xidməti kimi qiymətləndirirdilər. Bundan sonra erməni kilsəsinin və terror təşkilatlarının fəaliyyətləri daha da genişləndi. İrəvan qubernatoru Qafqaz canişinin mülki hissə üzrə direktoruna 1904-cü il 20 iyul tarixli 1026 №-li məxfi məktubunda bu barədə yazırdı: *"...erməni terror təşkilatlarının fəaliyyəti nəinki zəifləmədi, yerli erməni gizli təşkilatları heç bir ciddi zərərə uğramadılar, bu isə onlara terror fəaliyyətlərini davam etdirməyə inam və imkan verdi".*

Həmin hadisədən sonra Daşnaksütyunun erməni kilsəsi üzərində təsiri daha da artdı. Təşkilat erməni xalqının iki milli sərvətinin qaldığı barədə geniş təbliğat aparırdı: məktəb və kilsə. Məktəb müəllimləri erməni şagirdləri arasında güclü təbliğat aparır, kilsə isə bütün erməniləri birləşdirirdi. Bütün bu fəaliyyətlər Rusiya hakimiyyət orqanlarının nüfuzdan düşürülməsi məqsədi daşıyırdı.

Q.S.Qolitsınə sui-qəsddən sonra Daşnaksütyun üzvləri Kars vilayətində daha çox görünməyə başladılar. Karsın coğrafi mövqeyi və Osmanlı dövləti ərazisində ermənilərin vəziyyətinə artan maraq onları çox zaman təqiblərdən xilas edirdi. Kars vilayəti daşnak terrorçuları üçün bazaya çevrilmişdi. Vilayətdə toplanan silahlar Cənubi Qafqazdakı ermənilərə ötürülürdü. Kilsə və terror təşkilatlarının təsiri altında olan erməni ünsürü Rusiyaya və ruslara nifrət edirdi. Rusiyanın Bəyazitdəki vitse konsulu İstanbuldakı rus səfirinə 1904-cü il 15 yanvar tarixli 9 №-li məxfi məktubunda bu barədə yazırdı: *"Buradakı ermənilər Rusiyaya nifrət edir və erməni çarlığını qurmaqda yeganə maneə kimi Rusiyanı görürlər. Onlar Qafqazda Rusiyanın ayaqlarının altını qazırlar".*



Erməni kilsəsinin rus xalqı və Rusiya əleyhinə fəaliyyətlərində növbəti addım rus-yapon müharibəsi zamanı oldu. Kilsə müharibədə Rusiyanın məğlub olmasını istəyən xarici ölkələrin əlində alət oldu. Müharibənin başlanması ilə Rusiyada yeni ictimai-siyasi vəziyyət yarandıqda Cənubi Qafqazda qarışıqlıq yaratmaq üçün kilsə və daşnaklar hərəkətə keçdilər. Ərzurumdan Rusiya nümayəndəsi S.Skryabinin 1904-cü il fevralın 1-də verdiyi məlumatda buna dair yazılırdı: *"Erməni komitələri Qafqazda açıq döyüşlərə başlayacaqlar".*

Rusiyanın Xarici İşlər naziri Vladimir Lamsdorf Daxili İşlər naziri V.K. fon Pleveyə 1904-cü il 28 fevral tarixli 184 №-li məxfi məktubunda xarici dövlətlərin ermənilərdən istifadə etməsinə dair yazırdı: *"...Qafqazda və Türkiyədə ermənilərin üsyanını qaldırmağa cəhd edirlər".*

Daşnakların 1904-cü ildə keçirilən III qurultayının qərarları kilsə və daşnakların əsl məqsədlərini bir daha təsdiq etdi. Qurultayda Daşnaksütyunun "özünümüdafiə" adı altında Qafqazda mübarizəyə hazırlaşması barədə qərar qəbul edildi.

Erməni kilsəsinin və terror təşkilatlarının xristianlığa ləkə vurmasının, dinlərarası düşmənçilik yaratmasının, Rusiyanın ayaqlarının altını qazmasının və rus xalqına arxadan zərbə vurmasının daha bir nümunəsi islam dinini məsxərəyə qoyması və s. idi. Jandarma əməkdaşları Bakıda axtarış aparan zaman islam dinini məsxərəyə qoyan erməni dilində kitabçalar tapmışdılar. Kitabçada Məhəmməd Peyğəmbər (s.ə.) erməni keşişinin formasında təsvir edilmişdi. Belə vəziyyət müsəlmanları hakimiyyətin fəaliyyətindən narazı saldığı üçün Rusiyaya qarşı yönəlmişdir.

Erməni keşişləri silah və sursat saxlamaqla xristianlığı gözdən salırdılar. Məsələn, 1905-ci ildə İrəvan quberniya jandarma idarəsi tərəfindən keşiş Seqomonyans, 1906-cı ildə isə keşiş Rubinyans silah saxlamaq və terror təşkilatı ilə əlaqədə ittiham edildilər.

1905-1906-cı illərin hadisələrindən sonra bəzi erməni din adamları törətdikləri cinayətlərə görə cəza alacaqlarından qorxub Şuşa şəhərindən qaçıb getmək istəsələr də, qəza rəisi onların bir neçəsini saxladı. Axtarış nəticəsində şəhərdəki erməni kilsəsindən 23 bomba, 2 Berdan tüfəng, 152 patron, 2 bıçaq, yanğın törətmək üçün partlayıcı maddə tapıldı. Bu əməllərinə görə keşişlər Ter-Karegin Ovanesyans, Ter-Arsen Axumov, Ter-Karapet Varapetyans və kilsədə çalışan bir neçə erməni saxlanıldı. Təqsirləndirilən şəxslərin hamısı polis idarəsində silah, partlayıcı maddə saxladıqlarını, bunları hələ iyulun 1-də erməni-azərbaycanlı toqquşmaları zamanı qoyduqlarını etiraf etdilər. Ona görə də Qaryagin, Zəngəzur, Şuşa və Cavad qəzalarının müvəqqəti general-qubernatoru general-mayor Bauerin 39 saylı qərarı ilə keşişlərə fövqəladə vəziyyət elan edilən ərazilərə girmək qadağan olundu. Saxlanılan kilsə əməkdaşları isə üç aylıq həbs cəzasına məhkum edildilər.

Kilsənin terror təşkilatı ilə əlaqədə olaraq xristianlığı gözdən salmasının daha bir nümunəsi Daşnaksütyunun Eçmiadzin kilsəsinin yanında dini təşkilat olan Patorik təşkil etməsi idi. Yalnız rəhbərliyə tabe olan bu terror təşkilatının başlıca vəzifəsi ermənilərin psixoloji və dini hisslərinə təşkilatın mövqeyindən təsir etmək idi. Patorikin fəaliyyətində erməni katolikosunun şəxsən iştirak etməsi isə kilsə və terror təşkilatının bərabər hərəkət etdiyini göstərirdi. Cənubi Qafqazda tökülən qanlar üçün məsuliyyəti erməni kilsəsi və terror təşkilatları daşıyırdı.

Anarxiya yaratdıqları üçün kilsə xadimlərinə qarşı çarizm hakimiyyət orqanları tədbirlər gördü. 1907-ci ildə Tiflis quberniyasında keşiş Ter-İsraelov, Yelizavetpol quberniyasında isə erməni kilsəsinin arximandriti Koryun Saakyan silah saxladıqları və terror təşkilatı ilə əlaqəli olduqları üçün barələrində cinayət işi açıldı.

Terrorçuların silah və sursatla təmin edilməsində erməni din xadimləri və Daşnaksütyun xüsusi rol oynayırdılar. Polis Departamentinin direktoru "Erməni inqilabi hərəkatının qısa tarixi oçerki" adlı 1908-ci il 9 iyun tarixli 65789 №-li məxfi sənədində yazırdı ki, 1908-ci ilin mart ayında Daşnaksütyun İrəvan eparxiyası Tatev monastrının keşişi İnzakın vasitəsi ilə Yaponiyadan silahlar alıb gətirdi.

Eçmiadzinin belə cinayətkar fəaliyyətlərinə qarşı hakimiyyət orqanları tədbirlər görməyə başladıqda katolikos pulları xəlvəti olaraq xaricə çıxarmağa başladı. Bununla bağlı olaraq F.D.İsayev "Pryamoy put" qəzetində dərc edilmiş "90-cı illərdə Qafqazda inqilabi təşkilatlar (Daşnaksütyun və erməni-tatar qırğını)" adlı məqaləsində yazırdı ki, Eçmiadzindəki erməni kilsəsi 30 milyon rubl pulu xaricə çıxardı.

Katolikosun rus xalqına, Rusiyaya və xristianlığa qarşı yönəlmiş bu fəaliyyəti Rusiya mətbuatında da hiddətlə qarşılandı. Məsələn, "Zemşina" qəzeti 1909-cu il 17 oktyabr tarixli sayında "Erməni riyarakliğı" adlı məqaləsində yazırdı: *"Ermənilər də ikili taktika işləyib hazırlamağa başlayırlar. Bunun xarakterik təzahürü erməni katolikosudur... Bu isə riyakarlıqdır. Ermənilər bir tərəfdən, Rusiyada separatçılığı dəstəkləyən müxalifət təşkilatları ilə ittifaqa girir, digər tərəfdən isə ermənilər arasında separatçılığa qarşı çıxırlar. Bu, riyakarlıqdan başqa bir şey deyildir və separatçılığı ört-basdır etmək deməkdir".*

Çarizm tədbirlər görsə də, kilsə xadimləri daşnak fəaliyyətlərində xüsusi rol oynayırdılar. Onların demək olar hamısı daşnaklar idi. Tiflis quberniya jandarma idarəsinin rəisi 1910-cu il mayın 5-də 6896 №-li məxfi məruzəsində Qafqaz Canişininin mülki hissə üzrə köməkçisinə yazırdı: *"Hazırda erməni sinodunun üzvlərinin çoxu daşnaklardır. Katolikos daşnakların əlindədir, ikiüzlüdür. Kilsə üzərində nəzarət etmək üçün daşnakların nümayəndəsi kilsədə oturur".*

Erməni kilsəsinin Rusiya və rus xalqı əleyhinə fəaliyyətlərində Birinci Dünya müharibəsi özünəməxsus yer tutur. Çarizmin köməyi ilə müxtariyyət qurmaq istəyən kilsənin və terror təşkilatlarının istəklərini Rusiya hakimiyyəti rədd etdi. Bundan sonra Eçmiadzinin və daşnakların Rusiyaya münasibəti dəyişdi. Çarizm orqanlarının tərtib etdiyi "Erməni məsələsinə dair arayış. Aprel 1915-ci il" adlı sənəddə yazılırdı ki, daşnaklar bildirdilər, Rusiyadan ermənilər üçün muxtariyyət gözləməyə dəyməz, ona görə də silahı rus ordusuna vermək olmaz, o, gələcəkdə Rusiyaya qarşı yönəldilə bilər. Bu mövqe 1915-ci il fevralın 16-18-də Tiflisdə Daşnaksütyunun nümayəndələrinin iştirakı ilə keçirilən yerli erməni komitələrinin qurultayında müzakirə olundu və eyni məzmunlu qərar qəbul edildi.

Erməni kilsəsi və terror təşkilatları Rusiyadan üz döndərərək Avropa ölkələrinə üz tutdular. Avropaya gedən bütün ermənilərin katolikosu V Gevorq keçirdiyi görüşlərdə bildirdi ki, Rusiya ermənilərin istəyini yerinə yetirmədi və "ermənilərsiz Ermənistan" istəyir. Səfər barəsində Tiflis quberniya jandarma idarəsinin rəisi Qafqaz Canişini dəftərxanasının xüsusi şöbəsinə 1917-ci il 17 yanvar tarixli 162 №-li məxfi məktubunda yazırdı ki, 1917-ci ilin əvvəllərində lodr Brays ermənilərin katolikosunu qəbul etmişdir. Görüş zamanı o xahiş etmişdir ki, "erməni məsələsi"nin həllinə yardım göstərsin. Lord Brays müharibənin sonunda imzalanacaq sülh müqaviləsinin şərtlərinə bu məsələni daxil etmək üçün çalışacaqlarını bildirmişdir.

Erməni kilsəsinin silah və sursat saxlamaqla xristianlığı gözdən düşürməsinə dair fəaliyyətləri sonrakı illərdə də davam etdi. Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Dövlət Siyasi İdarəsinin "İranda daşnakların fəaliyyəti" adlı 1932-ci il 15 may tarixli 00313 №-li tamamilə məxfi sənədində yazılırdı ki, Cənubi Azərbaycan Culfasından 30 km aralıda yerləşən Daraşan monastrında keşiş Gevondun nəzarəti altında silah anbarı yaradılmışdır. Sovet xarici kəşfiyyat məlumatlarına görə, daşnakların Təbrizdəki təşkilatında 600-dən çox tapança var idi və Mauzer üçün 5 min, Naqan üçün isə 3 min patron alınmışdı.

İkinci Dünya müharibəsi başa çatdıqdan sonra da erməni din xadimləri Allahın evi olan kilsəni silah və sursat anbarına çevirmək ənənələrini davam etdirdilər. Bununla əlaqədar olaraq sovet xarici kəşfiyyatının "Təbrizdə (İran) daşnakların silah anbarının üzə çıxarılması ilə əlaqədar olaraq tədbirlər haqqında " adlı tamamilə məxfi sənədində yazılırdı ki, daşnakların Cənubi Azərbaycanda başlıca məntəqəsi Təbrizdir. Burada onlar silah anbarı yaratmışlar. Anbar Lilavandakı erməni kilsəsində yerləşir. 1946-cı ildə 15-ci Qafqaz korpusunun Əks-Kəşfiyyat SMERŞ əməkdaşlarının səyləri nəticəsində həmin anbardan 50 min tüfəng patronu, 19 tüfəng, Naqan və Mauzer tipli 23 tapança, 3 min bomba fitili, 25 ədəd qumbara, 500 kiloqram partlayıcı maddə (dinamit, amonal və b.) və digər silahlar götürüldü. Kilsədə silah və sursat saxlanılması haqqında yayılan xəbərdən hiddətlənən yerli azərbaycanlılar bəyan etdilər ki, ermənilər onlara qarşı üsyan hazırlayırlar və düşmənləridir, haqq-hesab çəkmək lazımdır. Hiddətlənən bəzi ermənilər silah saxladıqları və İran Azərbaycanındakı erməniləri zərbə altına qoyduqları üçün daşnakları, xüsusən Təbrizdəki erməni eparxiya şurasının rəisi arxiyepiskop Nerses Melik-Tangiyanı, zərgər Aykak Kosayanı, ədəbiyyatçı Qayk Əcəmyanı, erməni məktəbinin keçmiş gözətçisi, həmin vaxt ticarətlə məşğul olan Ovanes Qabrielyanı və onun oğlu Andranik Qabrielyanı təqsirləndirirdilər. Yeni silah anbarlarının olması mümkünlüyünü nəzərə alan və yerli əhali ilə ermənilər arasında münaqişənin qarşısını kəsmək üçün sovet ordu komandanlığı bir sıra həbslər həyata keçirdi. Təqsirləndirilən şəxslər cinayətlərini etiraf etdilər.

Erməni kilsəsinin Rusiya və rus xalqı əleyhinə fəaliyyətlərinin növbəti mərhələsi SSRİ-nin faşist Almaniyasının işğalı altında olan ərazilərində nasistlərlə əməkdaşlıq etməsi olub. Sovet kəşfiyyat sənədlərində yazılır ki, müharibənin gedişində Stavropol, Rostov-Don və başqa şəhərlərdə açılan erməni kilsələrində yaradılan "Kilsə şuraları", "Erməni dini icmaları" və "Kilsə xeyriyyəçiliyi" cəmiyyətləri ruslar və digər slavyan xalqları əleyhinə fəal antisovet təbliğat aparır və Cənubi Qafqazın işğalına kömək etməkdən ötrü vəsait toplayırdılar.

1980-ci illərin ortalarından etibarən SSRİ-də anarxiya, xaos və qarşıdurmanın yaradılmasında, günahsız insanların qanının tökülməsində, ev-eşiklərindən didərgin düşmələrində erməni kilsəsi ənənəvi rolunu davam etdirib. Erməni kilsəsi Azərbaycana qarşı əsassız ərazi iddialarının irəli sürülməsini geniş təşviq etməklə münaqişə yaradılmasında cinayətkar rol oynayıb. 1988-ci ilin fevralında Sumqayıtda təxribatın törədilməsində erməni kilsəsinin özünəməxsus payı vardır. Həmçinin Bakıda 1990-cı ilin sonlarında törədilən təxribatda da erməni kilsəsinin müəyyən rolu olub. Bununla bağlı olaraq ən mötəbər mənbələrdən birində yazılır ki, 1988-ci il martın 8-10-da Bakıdakı erməni kilsəsinin dyakonu (aşağı rütbəli keşiş - M.Q.) S.S.Davityan Eçmiadzinə gedərək katolikos I Vazgenin qəbulunda olmuş, sonra isə ieoromonaxlar İsaxanyan, Mkrtıçyan və dyakon Matevosyan ilə görüşmüşdü. Söhbətlər zamanı Matevosyan Bakı və Sumqayıtdakı şəraitlə maraqlanmış, Bakı ermənilərinin Dağlıq Qarabağ məsələsində bitərəf mövqe tutmasının səbəblərinə dair suallar verərkən demişdi: *"Onlar böyük işlər görməyə qadir deyillər, böyük işlər böyük qurbanlar tələb edir, onlar isə qorxaqdırlar".*

S.Davityan cavabında bildirmişdi ki, Ermənistan əhalisinin çıxışları Bakı ermənilərinin vəziyyətinə mənfi təsir edə bilər. Bu zaman kilsə xadimləri soyuqqanlılıqla belə söyləmişdilər: *"Burada qorxulu heç nə yoxdur, onları (Bakı erməniləri nəzərdə tutulur - M.Q.) qurban vermək olar".*

Bu, bir daha təsdiq edir ki, Bakıda 1990-cı ilin sonlarında təxribatın törədilməsində erməni kilsəsi bilavasitə iştirak edib. İnsanların qanı və acıları erməni kilsəsinin üstündədir.

Ermənistan hakimiyyətinin din adamlarını zorla Azərbaycan ərazisinə müharibəyə göndərməsinə dair son fakt Qubadlı rayonunda əsir düşən erməni silahlılarından birinin Gümrü şəhəri Adventist kilsəsinin rahibi Hovsep Araratoviç Sahakyanın olmasıdır. Azərbaycan dövləti onun işğalçı ölkənin vətəndaşı olmasına baxmayaraq, dini ayinlərini icra etməsi üçün şərait yaradıb. Rahib Yeddinci Günün Adventistlərinin Dua Evində dua edib. Keçirilən görüşdə bildirib ki, əlinə silah götürüb döyüşmək istəmədiyini deməsinə baxmayaraq, zorla Azərbaycan ərazisinə göndəriblər. Bu hal terroru dövlət siyasətinə çevirən Ermənistan adlı bir qurama dövlətin əsl mahiyyətidir.

❖ ❖ ❖

Beləliklə, təqribən son 200 illik fəaliyyəti erməni kilsəsinin əsl simasını ortaya qoyur. Erməni katolikosunun başçılığı altında erməni kilsəsi terror təşkilatları ilə sıx əlaqə yaratmaqla, terroru təşviq etməklə, kilsə xadimlərinin çoxu terror təşkilatlarının üzvləri olmaqla, kilsə zirzəmilərini silah və sursat anbarına çevirməklə, xalqlar arasında nifaq və kin-küdurət yaratmaqla sülh və birgəyaşayış dini olan xristianlığa ləkə gətirib. Katolikosun bütün fəaliyyəti Rusiya dövləti və rus xalqının əleyhinə yönəlib, onlara xaincəsinə arxadan zərbə vurub. Bütün bunlar bir daha təsdiq edir ki, həm XIX əsrin sonlarında, həm də indi erməni kilsəsi sülh yaratmaqdan çox uzaq olub.

*Ona görə də katolikos İİ Qareginin çağırışından təəccüblənmək lazım deyildir. Onun müvafiq çağırışı erməni kilsəsinin əsrlər boyu formalaşmış ənənəsinin yeni şəraitdə davam etdirilməsidir. Dünyanın xristian xalqlarının, o cümlədən Rusiyanın və rus xalqının bunu görməsi zamanı hələ çatmayıbmı?*

***Musa QASIMLI,***
***Milli Məclisin deputatı,***
***AMEA-nın müxbir üzvü,***
***professor***



# Arxa cəbhə











# Azərbaycan düşmənin dağıtdıqlarını yenidən qurmağa qadirdir

## Ermənistan isə aldığı zərbələrdən hələ uzun müddət belini dikəldə bilməyəcək

**Qarabağda düşmən tərəfindən dağıdılmış, talan edilmiş şəhər və kəndlərimizin hamısını təzədən tikib-quracağıq. Cocuq Mərcanlıda olduğu kimi, onların hər birində həyat yenidən qaynayacaq.**

Yeni evlər tikiləcək, infrastruktur yaradılacaq, tarixi və mədəni abidələr bərpa olunacaq. Prezident İlham Əliyev bunu dəfələrlə bəyan etmişdir və həmin istiqamətdə işlərə artıq başlanmışdır. Belə ki, dövlət başçısı bu il oktyabrın 29-da "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzalamışdır.

Prezidentin noyabrın 6-da imzaladığı sərəncam isə sentyabrın 27-dən bəri erməni vandalları tərəfindən mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqındadır.

Belə ki, Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Ordusu qətiyyətli əks-hücum əməliyyatları aparmış və düşmənə ağır zərbələr endirmişdir. Silahlı qüvvələri darmadağın edilən, canlı qüvvə və texnika sarıdan böyük itkilər verən Ermənistanı döyüş meydanındakı məğlubiyyətləri rüsvay etmişdir. Düşmən bunların əvəzini çıxmaq üçün münaqişə zonasından və cəbhə xəttindən xeyli aralıda yerləşən şəhər və rayonlarımızın mülki əhalisini, eləcə də infrastruktur obyektlərini hədəf seçmişdir. Müxtəlif növ silahlardan, o cümlədən artilleriyadan və ballistik raketlərdən atəş açaraq insanlıq əleyhinə ağlasığmaz cinayətlər törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, insanların əmlakına, infrastruktur obyektlərinə irimiqyaslı zərər vurmuşdur.

Erməni faşistləri dəfələrlə Gəncə və Mingəçevir şəhərlərinə, digər bölgələrimizə qadağan olunmuş silahlardan atəş açarkən onlarca soydaşımızın, o cümlədən qocanın, qadının, uşağın həyatına son qoymuşlar. Bu barədə Prezident İlham Əliyev demişdir: "Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz. Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket komplekləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir".

Məhz xalqın birliyi, öz Prezidenti ətrafında yumruq kimi sıx birləşməsi, Ordumuzun qəhrəmanlığı nəticəsində düşmən şərtlərimizi qəbul edərək torpaqlarımızdan çıxır.

Dövlət başçısının oktyabrın 6-da imzaladığı sərəncam da məhz düşmənin təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədinə yönəldilib. Bunun üçün Dövlət Komissiyası yaradılıb. Sərəncama əsasən, komissiya dəymiş ziyanın qiymətləndirilməsini iki ay müddətində təmin edib Prezidentə məlumat verməlidir. Dövlət başçısına, eləcə də qiymətləndirmənin nəticələrinə əsasən, dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflər təqdim ediləcək.

Aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının yaradılması, habelə həmin məlumatların daim yenilənməsi təmin olunacaq.

Görülmüş işlər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması nəzərdə tutulub. Xarici İşlər Nazirliyi bu məlumatların beynəlxalq ictimaiyyətə, o cümlədən beynəlxalq təşkilatlara çatdırılması üçün tədbirlər görməlidir. Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi Nazirlər Kabinetinə tapşırılıb. Qeyd edək ki, sözügedən komissiya artıq özünün birinci iclasını keçirib.

Mənfur düşmənin istər 30 ildir, istərsə də son bir ay yarımda uçurduqlarını, söküb-yandırdıqlarını, talan etdiklərini yenidən tikəcək, quracaq, öz yerinə qaytaracağıq. Bunun üçün dövlətimizin gücü də, xalqımızın iradəsi də var. Ermənistan isə aldığı zərbələrdən hələ uzun müddət belini dikəldə bilməyəcək. Yoxsulluq məngənəsində sıxıla-sıxıla Azərbaycanın inkişafına dalandan baxacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan oktyabrda "OPEC+" üzrə öhdəliyini yerinə yetirib

**Cari ilin oktyabr ayında ölkə üzrə gündəlik neft (kondensatla birlikdə) hasilatı 675,2 min barel olub. Bunun 587 min barelini xam neft, 88,2 min barelini isə kondensat təşkil edib.**

"Əməkdaşlıq Bəyannaməsi"nə əsasən, 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan Azərbaycan cari ilin avqust-dekabr aylarında xam neft istehsalını sutkada 131 min barel azaltmaqla 587 min barel həcmində saxlamalıdır. Bununla da Azərbaycan oktyabr ayında "OPEC+" üzrə xam neft hasilatını orta günlük 587 min barel həcmində icra etməklə, "OPEC+" üzrə öhdəliyini 100 faiz yerinə yetirib.

Qeyd edək ki, 12 aprel tarixli "OPEC+" razılaşmasının gündəlik xam neft hasilatının ümumilikdə 7,7 mln. barel azaldılması ilə bağlı ikinci mərhələsi 1 avqust - 31 dekabr tarixlərini əhatə edir.

# Çin idxal sərgisində 72,6 milyard dollarlıq sövdələşmələr əldə edilib

Noyabrın 5-10-da Şanxayda Azərbaycanın da iştirakı ilə keçirilmiş 3-cü Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində ümumilikdə 72,62 milyard ABŞ dolları dəyərində ticarət və xidmət razılaşmaları əldə olunub.




AZƏRTAC xəbər verir ki, bu göstərici ötənilki sərgidə əldə olunan nəticə ilə müqayisədə 2,1 faiz çoxdur. Təşkilat komitəsi pandemiya dövrünə təsadüf edən builki sərgidə əldə olunan nəticədən razıdır.

ÇXR-in Sədri Si Cinpinin himayəsi ilə keçirilən sərgi idxal məhsullarının və xidmətlərinin Çin bazarına daxil olmasını təşviq etmək və bu işə dəstək məqsədi daşıyır. Şanxay sərgisi dünyada ölkə səviyyəsində keçirilən ilk böyük idxal sərgisidir.

Qeyd edək ki, Azərbaycan bu il Çin Beynəlxalq İdxal Sərgisində vahid ölkə pavilyonu ilə təmsil olunan azsaylı dövlətdən biri olub. İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda Ixracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və ölkəmizin Çindəki Ticarət Nümayəndəliyinin təşkilatçılığı ilə 20-dən çox şirkətə aid nar şirəsi, fındıq, şərab və digər spirtli içkilər, meyvə distilyatları, mineral sular, qənnadı məmulatları, un məmulatları, çay, mürəbbə, kompot, limonad, meyvə quruları və sair məhsullar sərgidə təqdim edilib. Azərbaycan məhsullarına əsasən idxalçılardan ibarət sərgi ziyarətçilərinin marağı böyük olub. Xüsusi qeyd olunmalıdır ki, pandemiya səbəbindən bu il sərgidə daha az ölkə milli pavilyonu ilə təmsil edilib. MDB məkanından ən böyük ölkə pavilyonu isə Azərbaycana məxsus olub.

Sərgi zamanı Azərbaycan məhsullarının Çinə ixracının artırılmasına dair müzakirələr aparılıb, potensial idxalçılarla görüşlər keçirilib.

# *Surra kəndinin gənclərindən vətənpərvər addım:*
# "Azərbaycan və Türkiyə bayraqları 200 metr yüksəklikdə dalğalanır"



**Şabranın Surra kəndinin gəncləri döyüş meydanında qələbə qazanan Azərbaycan Ordusuna dəstəklərini nümayiş etdiriblər.**

AZƏRTAC xəbər verir ki, dağlıq ərazidə yerləşən yaşayış məntəqəsində Azərbaycan və Türkiyə bayraqları 200 metr yüksəklikdə dalğalandırılır. Bayraqlar kəndin kənarındakı bir-birindən 1 kilometrdən çox uzaqlıqda yerləşən iki yüksəklikdən çəkilən xüsusi kəndirlə bərkidilib.

Sentyabrın 27-də başlanan Vətən müharibəsində şəhid olan Xəyal Həsənovun atası Əliyulla Həsənov bildirib ki, ordumuzun döyüş meydanındakı uğurlu əməliyyatları gənclərdə böyük ruh yüksəkliyi yaradıb. "Bu gün hər evdə, hər küçədə bayrağımız dalğalanır. Biz qalib xalqın nümayəndələriyik. İndi oğlumun ruhu da şaddır. Bu bayraqları səmada dalğalandırmaqla kəndimizin cavanları ordumuza dəstək olub, eyni zamanda, Xəyalın xatirəsinə hörmətlərini bildiriblər"-deyə, Əliyulla Həsənov vurğulayıb.

Kəndin üzərində dalğalanan bayraqların eni 5, uzunluğu isə 9 metrdir. Böyük ölçülü bayraqları kəndin istənilən ərazisindən görmək olur. Sakinlər Azərbaycan və Türkiyə bayraqlarının burada daim dalğalanacağını bildiriblər.

# Erməni terrorundan zərər çəkən ailələrə sovqatlar paylanıb

**Təcavüzkar Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı terror hücumlarından zərər çəkən vətəndaşlarla, şəhid ailələri ilə görüşülərək onlara mənəvi-psixoloji dəstəyin göstərilməsi işləri davam edir.**



Bu istiqamətdə işlərlə yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı və BMT Uşaq Fondunun (UNICEF) dəstəyi ilə "Ailə sovqatları" humanitar aksiya da təşkil olunub.

Bərdə və ətraf ərazilərdə erməni terrorundan zərər çəkmiş ailələrə aksiya çərçivəsində sovqatlar paylanıb. Ümumilikdə 1000-dək ailə bu aksiya ilə əhatə olunub.

# Milli Observatoriyada təlimlər keçirilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyada SPSS (Statistical Package for Social Seciences) təlimi proqramı həyata keçirilir.**

Bu proqram qurumun əməkdaşlarının statistik təhlillərlə bağlı bilik və bacarıqlarının təkmilləşməsinə, kəmiyyət analizləri üzrə mövcud alətlərlə tədqiqat bacarıqlarını artırmalarına imkan verəcək. Onlar effektiv keyfiyyət tədqiqatlarının aparılması və proqnozların qurulması metodlarına yiyələnəcəklər. Bu da Milli Observatoriyanın təhlil etdiyi məsələlərin statistik analizi sahəsində baza bacarıqlarının formalaşdırılması və inkişafına şərait yaradacaq.

Təlimlərin hər qrupda 12-15 nəfər olmaqla 3 qrup üçün aparılması nəzərdə tutulub və hazırda I qrup üzrə təlim davam edir.

# Ağdamın şöhrətli günləri yenidən qayıdacaq

**Qarabağ qələbəmiz ölkəmizdə bayram əhvali-ruhiyyəsi, xalqımızda xoş ovqat yaradıb. 30 ildən bəri ayrı-ayrı rayonların işğal günlərini ürək ağrısıyla, göz yaşıyla qeyd etdiyimiz günlər artıq bizim üçün kədərli tarixə çevrilib. Azərbaycan əsgəri yeni tarix yazıb. Basılmaz, yenilməz Ordumuz döyüş meydanında canı və qanı bahasına bütün dünyanı heyrətə salan xarüqələr yaradıb. "Qarabağ Azərbaycandır!" deyən qəhrəman oğullar öz hünəriylə Azərbaycan üçün QƏLƏBƏNİ təmin ediblər.**



Vətən müharibəsində yeni və həlledici mərhələ başlayandan bəri elə gün olmurdu ki, Ağdam rayonunun yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin artilleriya atəşlərinə, raket zərbələrinə məruz qalmasın. Döyüş meydanında Azərbaycan əsgərinə cavab verə bilməyən, hər həmlədə itkilər verib geri otuzdurulan erməni faşistləri məğlubiyyətlərinin heyfini mülki əhalidən çıxır, kəndlərə, qəsəbələrə top mərmiləri, raketlər yağdırırdılar. Xalq-ordu birliyinin sarsılmazlığı, qəhrəman Azərbaycan əsgərinə yenilməz inam düşmən təxribatlarını nəticə etibarı ilə heçə endirirdi. Şiddətli artilleriya atəşləri bu cəbhə bölgəsində çox sayda yaşayış evlərini, məktəbləri, xəstəxanaları, uşaq bağçalarını və digər sosial obyektləri dağıdıb yararsız hala salsa da, ağdamlılarda döyüş ruhu yüksək, qələbəyə inam böyük idi.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov Ağdamın bü gününü belə dəyərləndirir:

- 30 ildən bəri xalqımız məhz bu günü gözləyirdi. Xalqımızın səbri böyük olduğu kimi, intiqam hissi də çox güclüdür. Ermənistanın baş naziri N.Paşinyan Cıdır düzündə yallı gedəndə, "Qarabağ Ermənistandır. Nöqtə" deyəndə biz için-için yanıb qovrulur, qisas hissi ilə alışıb yanırdıq. Amma Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Qarabağ savaşından söz düşəndə deyirdi ki, nəyi, necə və nə vaxt etməyi mən yaxşı bilirəm. Zaman göstərdi ki, dövlət başçısı Qarabağı işğaldan azad etmək üçün ən əlverişli məqamı son dərəcə siyasi müdrikliklə müəyyən etmişdir. Bu qərar region üçün də, beynəlxalq aləm üçün də zaman baxımından çox uyğun idi. Bütün baxış bucaqlarından nəzər yetirsək belə, bu tarixi qərarın doğru olduğunu birmənalı olaraq təsdiq edərik. Ən böyük sübut isə şanlı Ordumuzun qələbələrlə müşayiət olunan zəfər yürüşü oldu. Çox xoşdur ki, müəyyən istisnalar olamaqla əksər dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mübarizəsini, öz ərazi bütövlüyünü bərpa etmək uğrunda savaşını müdafiə etdi. Bütün bunlar Prezident İlham Əliyevin beynəlxalq aləmdə uzaqgörən siyasi müdrikliklə həyata keçirdiyi uğur diplomatiyasının məntiqi nəticəsi idi.

Bu gün Ağdam da qələbə sevincini yaşayır. Unutmayaq ki, Birinci Qarabağ savaşında ən çox şəhidi (5 min nəfərdən çox) Ağdam verib. Azərbaycan əsgəri döyüş meydanında hünər göstərib şəhidlərimizin qanını alanda, işğal altındakı torpaqlarımızı düşmən tapdağından xilas edəndə, bu həm də şəhidlərimizin qisası idi. Bizim xalqımız çox məğrurdur. Bir daha gördük ki, Azərbaycan xalqı fövqəlgüc qarşısında məhv olar, amma əyilməz, qula, köləyə çevrilməz. Müdrik Ali Baş



Komandanımız, qəhrəman əsgərlərimiz Qarabağı azad etməklə bizi illərdən bəri çiyinlərimizdə daşıdığımız ağır töhmət yükündən, böyük xəcalətdən xilas etdi. İndi hamının üzü gülür, eynəsi açılır. Çox maraqlıdır, müharibə başlayandan rayon İcra hakimiyyətinə bir nəfər də maddi yardım üçün müraciət etmədi. Baxmayaraq ki, artilleriya mərmiləri, raket zərbələri çox sayda yaşayış evlərini dağıdırdı. Təbii ki, əksər hadisə yerlərinə baş çəkib ev sahiblərinə toxdaqlıq verir, imkan daxilində zəruri köməklər edirik. Ev sahiblərinin ifadə etdikləri fikirlər birmənalıdır: evimiz də, varımız-dövlətimiz də, üstəlik canımız da Vətənə qurbandır. Əlbəttə, dövlətimiz dağılan evləri bərpa edəcək, mülki əhaliyə dəyən zərəri artıqlaması ilə ödəyəcək. Bunu hər kəs yaxşı bilir. İndi bizi işğaldan azad ediləcək ərazilərimizdə aparacağımız tikinti, abadlıq, quruculuq, işləri düşündürür. Heç şübhəsiz Ağdamın şöhrətli günləri yenidən qayıdacaq. Həm də əvvəlkindən çox fərqli, daha gözəl, müasir və qürürverici formada...

Döyüşlərin ən qızğın günlərində də rayonun təsərrüfatlarında əkin-biçin işləri davam edir. Cari il rayonun "sarı kəhrəba" ustaları üçün xüsusilə uğrulu oldu. Rayonun təsərrüfatlarında taxıl zəmilərinin hər hektar üzrə orta məhsuldarlığı 42,8 sentnerə yüksəldi. Təbii ki, çətin şəraitdə bu rekord göstəricinin qazanılmasına böyük əmək sərf edildi. Hər kəs yaxşı başa düşürdü ki, müharibə şəraitində yaşayan bir dövlətdə çörəyin bolluğu silah-sursat qədər vacib şərtdir.

Ağdam kəndlisi əsl əmək fədakarlığı nümunəsi göstərərək ət, süd, yumurta, meyvə-tərəvəz istehsalını da xeyli artırmışdır. Hazırda pambıq yığımı davam edir. Məqsəd böyük zəhmət bahasına yetişdirilmiş məhsulu son qozasınadək yığıb təhvil verməkdir.

Ərazisinin dörddəüç hissəsi düşmən işğalında qalan Ağdam bu gün səbirsizliklə bütövləşəcəyi günü gözləyir. O gün isə lap yaxındadır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Ağsaqqallar Şurası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət edib

Azərbaycan Ağsaqqallar Şurası Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.

Möhtərəm Prezident!
Cənab Ali Baş Komandan!

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan Vətən müharibəsində əldə olunan möhtəşəm zəfər münasibətilə ölkəmizin çoxsaylı ağsaqqalları adından Sizi - bu qələbənin memarını ürəkdən təbrik edirik. Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bu qələbəyə doğru çətin və uzun bir yol keçdi. Münaqişənin davam etdiyi illərdə Siz çox böyük uzaqgörənlik və təmkinlə həm xalqımızı, həm də rəşadətli ordumuzu haqqın və ədalətin bərpası uğrunda Vətən müharibəsinə hazırladınız, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir hərbi texnika ilə təchizatının təmin edilməsi üçün misli olmayan səylər göstərdiniz. İştirakçısı olduğunuz ən yüksək beynəlxalq tribunalardan Qarabağ həqiqətlərini dünyaya bəyan etdiniz, aparıcı dövlətlərin rəhbərlərini Qarabağın ölkəmizin əzəli torpaqları olduğuna və işğaldan azad edilməsinin labüdlüyünə inandırdınız. Qardaş Türkiyə Respublikası başda olmaqla bütün türkdilli dövlətlərin, həmçinin Pakistan, İran, İsrail kimi nüfuzlu dövlətlərin Azərbaycanın haqq işinə dəstəyinə nail oldunuz. Müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyiniz tutarlı arqumentlərlə zəngin müsahibələrinizlə ölkəmizin haqq səsini dünya ictimaiyyətinə bir daha çatdırdınız, eyni zamanda, Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin müharibənin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldınız.

Hərbi əməliyyatlar gedişində Sizin müntəzəm olaraq bəyan etdiyiniz müjdə dolu qələbə xəbərlərini, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları ölkəmizin hər bir vətəndaşı səbirsizliklə gözləyir, bu xəbərləri böyük sevinc hissi ilə dinləyirdilər. Sizin bilavasitə rəhbərliyinizlə rəşadətli Azərbaycan Ordusu vasitəçi dövlətlərin 30 il ərzində həll edə bilmədiyi məsələni cəmi 44 gün ərzində həll etməklə torpaqlarımızı erməni işğalından azad edərək ölkəmizin tarixi ərazi bütövlüyünü bərpa etdi. Şəhidlərimizin və Qarabağ qazilərinin qanlarının yerdə qalmasına yol vermədiniz, üçrəngli bayrağımızın illərdir yolumuzu gözləyən şəhər və kəndlərimizdə dalğalanmasına, anaların göz yaşlarının sevinc yaşları ilə əvəzlənməsinə nail oldunuz.

Bu müharibə Sizin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, mahir sərkərdəlik bacarığınızın nümayişi oldu. Müqəddəs qələbə sevincini yaşamağı nəsib etdiyinizə görə Azərbaycan xalqı Sizinlə və Sizin yaratdığınız Silahlı Qüvvələrlə, onların peşəkar zabitləri və rəşadətli əsgərləri ilə haqlı qürur duyur. Əminik ki, yüz illərlə bundan sonra gələn nəsillər də Sizin qəhrəmanlıq, xilaskarlıq, azadlıq missiyanız haqqında oxuyaraq fəxr edəcəklər.

Əldə olunan böyük Qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, xalqımıza yaşatdığınız bu sevincli günlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Müraciəti Azərbaycan Ağsaqqallar Şurasının 21500 nəfər üzvü adından şuranın sədri Eldar Quliyev imzalayıb.

# Azərbaycan idmançıları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət ediblər

Azərbaycan idmançıları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət ediblər. AZƏRTAC müraciəti təqdim edir.

Hörmətli cənab Prezident, Ali Baş Komandan İlham Əliyev!

Azərbaycan xalqının 30 illik həsrətinə son qoyub, işğal edilmiş ərazilərimizin azad olunmasında qazandığınız tarixi zəfər münasibətilə idman ictimaiyyəti adından Sizə səmimi təbriklərimizi və dərin təşəkkürümüzü çatdırırıq.

Cari ilin 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq törətmiş olduğu genişmiqyaslı təxribatlarına cavab olaraq Sizin rəhbərliyiniz və komandanlığınız altında rəşadətli Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində uğurlu və sürətli əks-hücum əməliyyatı həyata keçirib. Şanlı Ordumuz Sizin rəhbərliyiniz altında gərgin və tarixi döyüş əməliyyatları gerçəkləşdirərək qısa zaman müddətində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarını, yüzlərlə qəsəbə və kəndlərimizi işğaldan azad edib.

8 noyabr tarixi isə Azərbaycan xalqının ürəyinə, yaddaşına qızıl hərflərlə yazıldı. Azərbaycanın fədakar oğulları hər hansı texnikanın iştirakı olmadan əsl möcüzə göstərərək, Qarabağın incisi qədim Şuşa şəhərini işğalçılardan təmizləyib, düşmən ordusuna sarsıdıcı zərbə endirdilər. Bu hadisə müharibənin gedişində əsl dönüş nöqtəsi oldu və nəticə etibarilə düşməni kapitulyasiya imzalamağa məcbur etdi.

Azərbaycan idmançıları daim Sizin siyasətinizi dəstəkləmiş, atdığınız hər bir addımda yanınızda olduqlarını söyləmişlər.

Biz daim Sizinləyik, Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyev!

Sizinlə fəxr edirik, məğrur və mübariz Azərbaycan Ordusu!

Bizə bu günləri yaşatdığınız üçün Sizə minnətdarıq!

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

# Azərbaycanda koronavirus infeksiyasına daha 1202 yoluxma faktı qeydə alınıb, 998 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 1202 yoluxma faktı qeydə alınıb, 998 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 68 min 594 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 51 min 7 nəfər müalicə olunaraq sağalıb, 885 nəfər vəfat edib. Aktiv xəstə sayı 16702 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 467 min 842 test aparılıb. Dünənki test sayı isə 10665-dir.




# İtaliya Ermənistan-Azərbaycan münaqişəsinin davamlı həlli üçün həmsədrlərə hər cür dəstəyi təmin edəcək

"İtaliya Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli bəyanatın imzalanması ilə Dağlıq Qarabağda əldə olunan atəşkəsi məmnunluqla qarşılayır və buna tam əməl olunacağına ümid edir".

AZƏRTAC xəbər verir ki, bu barədə İtaliya Xarici İşlər Nazirliyinin açıqlamasında deyilir.

Açıqlamada həmçinin bildirilir: "İtaliya tərəflərin bütün ərazidə sabitliyə və davamlı sülhə şərait yarada biləcəkləri ümidi ilə əldə etdikləri digər razılaşmaları da nəzərə alır. Bu xüsusda İtaliya bölgə daxilində barışıq üçün zəruri şərt olan, hər bir icmanın ləyaqətinə və bölgənin mədəni və dini plüralizminə hörmət göstərməyin vacibliyini vurğulayır. İtaliya Minsk qrupunun üzvü olaraq, münaqişənin davamlı həlli üçün vacib şərt olan atəşkəsin möhkəmləndirilməsi baxımından həmsədrlərə hər cür dəstəyi təmin edəcək. İtaliya həmçinin Avropa İttifaqı daxilində, Avropa və ölkəmiz üçün, o cümlədən əhəmiyyətli bir bağlantı və enerji təchizatı mərkəzi olan bölgənin sabitləşməsinə və inkişafına öz töhfəsini verəcək".

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi mühərrikli əlil arabalarının satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" publik hüquqi şəxsi**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (11.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir, sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə, vergi orqanları tərəfindən təsdiq olunmalıdır, əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (11.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
*9. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*10. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*11. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02.12.2020-ci il saat 15:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **10.12.2020-ci il saat 18:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11.12.2020-ci il saat saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


Azərbaycan Dəmir Yolları QSC

## Ali Baş Komandan cənab İlham Əliyevi, Şanlı Ordumuzun əsgər və zabitlərini və Azərbaycan xalqını Vətən müharibəsində Qələbə münasibətilə təbrik edir!



QARABAĞ AZƏRBAYCANDIR!


# "Azərenerji" artan tələbatı qarşılamaq üçün işləri bir qədər də sürətləndirib

**"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ölkədə elektrik enerjisinə artan tələbat, xüsusilə torpaqlarımızın işğaldan azad olunmasından sonra bu tələbatın daha da artması enerji sistemində aparılan tikinti və yenidənqurma işlərinin bir qədər də sürətləndirilməsini şərtləndirib.**




Məhz bu səbəbdən də "Azərenerji" gücünü səfərbər edərək bütün istiqamətlərdə, o cümlədən yeni tikilən 1000 meqavat yükötürmə gücündə olan 330, 220, 110 kolovoltluq "Qobu" yarımstansiyasında və 385 meqavatlıq "Qobu" elektrik stansiyasında işləri daha da intensivləşdirib.

Qeyd edək ki, "Qobu" Enerji Layihəsi ölkənin enerji sistemində bir mənbədən asılılığı aradan qaldırmaq, Bakı və Abşeronun elektrik enerjisi ilə təchizatının dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmaq, ölkə üzrə artan tələbatı qarşılamaq, regionlardakı elektrik stansiyalarının Bakıya yönələn yükünü azaldıb əyalətlərə sərf edilməsi baxımından müstəsna rola malik olacaq. Yaradılan yeni mənbə Abşeron enerji sistemində tənzimləyici generasiya gücü funksiyasını daşıyacaq. Burada tikilən "Qobu" yarımstansiyasının xüsusi özəlliyi ondan ibarətdir ki, bu, Bakıda tikilən ilk 330 kV-luq yarımstansiya olacaq və ən əsası, ölkənin ən strateji yarımstansiyası olan 500 kV-luq "Abşeron" yarımstansiyasının əvəzedicisi funksiyasını daşıyacaq. Artıq elektrik stansiyasının hər 3 maşın zalının yeraltı kommunikasiya xətlərində aparılan işlər tamamlanıb, 7 blok transformatorunun yeraltı əlaqələnmə xətləri çəkilib, su, drenaj, qaz boruları atılıb, metal-konstruksiya işləri davam edir. Yarımstansiyada isə işlərin çox hissəsi, o cümlədən metal-konstruksiya işləri başa çatıb, avadanlıqların montajı aparılır. Yeni İdarəetmə binası tikilib və hazırda binanın montaj işləri davam edir. Eyni zamanda müasir standartlara cavab verəcək tədris və yataqxana binasının inşası həyata keçirilir. "Qobu" Enerji Layihəsinin enerji sistemlə inteqrasiyası üçün çəkilən yüksək gərginlikli xətlərin inşası da sürətlə davam edir. "Qobu" Enerji Layihəsinin nəzərdə tutulan vaxtdan bir qədər də tez - gələn ilin sonuna qədər tamamlanması nəzərdə tutulub.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən Daxili məhkəmə proseslərinin mərkəzləşdirilmiş vahid elektron uçotunun və idarəetmə sisteminin qurulması işlərinin satın alınması ilə əlaqədar elan edilmiş açıq tenderin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə uyğun olaraq tender təkliflərinin verilməsinin son müddəti 2020-ci il 16 noyabr saat 15:00 və tender təklifi zərflərinin açılışı vaxtı 2020-ci il 17 noyabr saat 15:00 müəyyən edilmişdir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Mexaniki alətlərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2020-ci il noyabrın 20-si saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***




# «Azercell» həmvətənlərimizlə qələbə sevincini bölüşür

**2020-ci il noyabr ayının 10-u bütün Azərbaycan xalqının yaddaşında əbədi həkk olundu. Şanlı Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 30 illik Vətən həsrətinə son qoydu.**




Ölkəmizin tarixində yeni səhifə açan bu möhtəşəm qələbə münasibətilə "Azercell Telekom" bütün Azərbaycan xalqını ürəkdən təbrik edir.

"Azercell Telekom"un hazırda ən əsas vəzifəsi və məqsədi xəritəmizdə, nəhayət ki, tam olaraq öz mövqeyini bərpa edən ərazilərdə sürətli şəkildə, tam gücü ilə 4G şəbəkəsinin genişləndirilməsinə təkan vermək və Qarabağ torpaqlarına qayıdacaq əhalini ən sürətli mobil internet və qabaqcıl kommunikasiya xidmətləriylə təmin etməkdir.

Qeyd etmək yerinə düşər ki, döyüşlərin getdiyi bir aydan artıq bir müddətdə gücləndirilmiş və gərgin iş rejiminə baxmayaraq, "Azercell" əməkdaşlarının səyi nəticəsində bütün kanallar vasitəsilə xidmət keyfiyyəti ən yüksək səviyyədə saxlanılıb. Belə ki, son göstəricilərə əsasən, onlayn kanallar vasitəsilə daxil olmuş müraciətlər 100 faiz cavablama göstəricisinə qədər yüksəlib.

Həmvətənlərimiz arasında həmrəylik və qələbə ruhunun yüksək səviyyədə saxlanılması, eləcə də Qarabağ mədəniyyətinin zəngin irsinə hörmət əlaməti olaraq "Azercell" şirkəti tərəfindən sosial mediada #gəlirik şüarlı sosial kampaniya keçirilmiş və izləyicilər arasında böyük əks-səda yaratmışdır. Belə ki, #gəlirik kampaniyasının Şuşaya həsr edilmiş videosu brendlər arasında sosial şəbəkələrdə Azərbaycan üzrə ən bəyənilən (120 mindən çox reaksiya) və ən paylaşılan (13 mindən çox paylaşım) videosu oldu: **https://www.facebook.com/azercell/posts/101581;/93722528303**

Qeyd edək ki, döyüşlərin getdiyi ilk günlərdən "Azercell" şirkəti Milli Ordumuza dəstək məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon manat həcmində vəsait köçürüb. Bundan əlavə, cəbhə bölgələrinə ezam edilmiş bütün media əməkdaşlarına və erməni təxribatına məruz qalmış Bərdə və Gəncə şəhərlərinin sakinlərinə də şirkət tərəfindən rabitə dəstəyi göstərilib.

"Azercell Telekom" bundan sonra da ölkəmizin əmin-amanlığı və sosial-iqtisadi inkişafı, bütün Vətən torpaqlarında mükəmməl rabitənin qurulması istiqamətində səylərini var gücü ilə davam etdirəcək.

Qələbəmiz mübarək olsun!

Qarabağ Azərbaycandır!

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin İT və server şəbəkəsi üçün avadanlıqların alınması və İT təhlükəsizliyinin yenidən qurulması işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

| | |
|---|---|
| LOT 1 | İT və server şəbəkəsi üçün avadanlıqların alınması və İT təhlükəsizliyinin yenidən qurulması |

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi**
**LOT 1 1500 manat**
**məbləğində pul vəsaitini "ASAN Ödəniş" sistemi ilə bank hesabına köçürməlidir:**
**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **02 dekabr 2020-ci il saat 11:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **10 dekabr 2020-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **11 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: (+99412) 493-56-00, faks: (+99412) 493-00-37).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Tender komissiyasının 02 noyabr 2020-ci il tarixdə "Maşın, avadanlıq və ləvazimatların satın alınması"na dair keçirdiyi Təkliflər sorğusu prosedurunda "İsoft" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 10 noyabr 2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən Yanğın mühafizə sistemlərinin alınıb-quraşdırılması işlərinin satın alınması məqsədilə 26.10.2020-ci il tarixdə keçirilmiş təkliflər sorğusu prosedurunun nəticəsinə əsasən "Element YT" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti 2020-ci il üçün xərclər smetasında "Dəftərxana və təsərrüfat xərcləri" (221100) maddəsinə ayrılmış vəsaitlər hesabına kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 17.11.2020-ci il tarixə qədər Dövlət Əmək Müfəttişliyi Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır.

**Əlaqələndirici şəxs: Anar Məmmədov.**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, M.Naxçıvani küçəsi, 25A**
**Telefon: (012) 525-55-45.**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin "Sənədlərin çeşidlənməsi, tikilməsi və cildlənməsi" ilə təmin edilməsi məqsədilə kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştrak etmək etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta,vergi, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) və digər zəruri sənədlər qapalı zərfdə, imzalanmış və möhürlənərək 13 noyabr 2020-ci il saat 18:00-dək Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli, 72 ünvanında yerləşən inzibati binaya təqdim olunmalıdır.

Zərflər 16 noyabr 2020-ci il saat 10:00-da həmin ünvanda açılacaqdır. Telefon: (012) 493-56-00.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi

### *açıq tenderə dəvət edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT-1. Regionlarda televiziya və radio yayımının keyfiyyətinin yüksəldilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün TV və FM radio yayım avadanlıqlarının, rəqəmli ehtiyat şəbəkə üçün rəqəmli TV yayım avadanlıqlarının alınıb quraşdırılması işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba Asan Pay vasitəsi ilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Əlaqə telefonu: (mobil): (055) 4009507; (şəhər): (012) 4987780 Əlaqələndirici şəxs: Zöhrə Əfəndiyeva Elektron poçt: info@teleradio.az

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Rekvizitlər:**
**Hesab №: AZ29AZPO91015461200420100081**
**VÖEN: 9900037841**
**Bank: Azərpoçt MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **02 dekabr 2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **10 dekabr 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **11 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankı Yevlax Ehtiyat Mərkəzinin inzibati binasının dam örtüyünün təmiri işlərinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 21 oktyabr 2020-ci il tarixli qərarına əsasən "Xronika Qrup" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7410
Sifariş 2584
Qiyməti 40 qəpik